## BELÇİKA JURNALI AZƏRBAYCANIN BİRİNCİ VİTSE-PREZİDENTİ MEHRİBAN ƏLİYEVAYA HƏSR OLUNMUŞ MƏQALƏ DƏRC EDİB

Brüsseldə nəşr olunan və geniş beynəlxalq oxucu auditoriyasına malik "Diplomatic World" jurnalında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevaya həsr olunmuş "Müasir Azərbaycan tarixinin böyük qadını" (bax: http://diplomatic-world.com/?p=3204) sərlövhəli məqalə dərc edilib. Məqalənin müəllifi "EurAsiaAz" beynəlxalq ekspert klubunun direktoru, Vzglyad.az xəbər agentliyinin baş redaktoru Seymur Məmmədovdur...


DIPLOMATIC WORLD

ARTICLE

AZERBAIJAN'S FIRST LADY MEHRIBAN ALIYEVA

Great woman of modern history of Azerbaijan

By Seymur Mammadov

Recently, on February 21, 2019, it was two years since the appointment of the First Lady of Azerbaijan, the head of Heydar Aliyev Foundation, the chairperson of Azerbaijani Culture Friends Foundation, the President of Azerbaijani Gymnastics Federation...

Bax səh. 3

## AMEA-DA AKADEMİK RAMİZ MEHDİYEVİN "TARİXİMİZİN XANLIQLAR DÖVRÜNÜN SİYASİ İRSİ SƏNƏDLƏR İŞIĞINDA" KİTABININ TƏQDİMATI OLUB

Aprelin 5-də Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Rəyasət Heyətində Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin "Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında" kitabının təqdimat mərasimi keçirilib. AZƏRTAC xəbər verir ki...




Bax səh. 4



Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 06 aprel 2019-cu il, şənbə / № 061 (5436). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik


# Prezident İlham Əliyev: Bu gün açdığımız bu gözəl qəsəbə həm bizim siyasətimizi, məcburi köçkünlərə qayğımızı, həm də ölkəmizin artan imkanlarını göstərir



*Dövlətimizin başçısı Bakının Kürdəxanı qəsəbəsində məcburi köçkün ailələri üçün yeni yaşayış kompleksinin açılışında iştirak edib*



## Prezidentin iş günü

Prezident İlham Əliyev Bakı şəhərində iki yeni "ASAN xidmət" mərkəzinin layihələndirilməsi və tikintisi haqqında Sərəncam imzalayıb.

Prezident İlham Əliyev Göyçay rayonunun Kürd-Şəhadət-Qarabağlar-İkinci Ərəbcəbirli avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

Prezident İlham Əliyev Novruz Nəcəf oğlu Novruzovun Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında Sərəncam imzalayıb.

Prezident İlham Əliyev Asif Həbib oğlu Hüseynovun Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında Sərəncam imzalayıb.

Prezident İlham Əliyev Məhərrəm Böyükağa oğlu Quliyevin Goranboy Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında Sərəncam imzalayıb.

Prezident İlham Əliyev Nizaməddin Məhəmməd oğlu Quliyevin Goranboy Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında Sərəncam imzalayıb.

Prezident İlham Əliyev Nizaməddin Məhəmməd oğlu Quliyevin Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında Sərəncam imzalayıb.

Prezident İlham Əliyev Məhərrəm Böyükağa oğlu Quliyevin Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında Sərəncam imzalayıb.

Prezident İlham Əliyev Asif Həbib oğlu Hüseynovun Şabran Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında Sərəncam imzalayıb.

Prezident İlham Əliyev Novruz Nəcəf oğlu Novruzovun Şabran Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında Sərəncam imzalayıb.



## YANĞINDAN ZƏRƏR ÇƏKMİŞ SAHİBKARLARA MADDİ YARDIMIN ÖDƏNİLMƏSİNƏ BAŞLANILIB

Xəbər verdiyimiz kimi, Bakının Nizami rayonunda yerləşən ticarət mərkəzində baş vermiş yanğında zərər çəkmiş sahibkarlara maddi yardım göstərilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamına uyğun olaraq, zərər çəkmiş sahibkarlara...

Bax səh. 4

## ŞAHİN MUSTAFAYEV: BAZARDA QİYMƏTLƏRİN ARTMASININ SƏBƏBLƏRİ ARAŞDIRILIR

Ölkədə pərakəndə bazarlar daim nəzarətdədir və monitorinqlər aparılır. Gündəlik tələbata daxil olan məhsullara daha çox ciddi nəzarət olunur.

AZƏRTAC xəbər verir ki, bu barədə iqtisadiyyat naziri Şahin Mustafayev deyib.

**"Son 1 aya yaxındır ki, soğan, kartof və kələmin qiymətində bahalaşma müşahidə olunur. İqtisadiyyat Nazirliyi qiymətlərin artmasının səbəblərini araşdırır. Deyə bilərəm ki, qiymət artımı süni şəkildə baş vermir. Ancaq qiymətlərin artımı bizi narahat edir. Hökumət tərəfindən bununla bağlı müvafiq tədbirlər görüləcək. Bu məhsullara ixrac rüsumu tətbiq etmək niyyətindəyik. Soğanın dəyərinə spesifik idxal rüsumu tətbiq olunurdu. Soğanın bir kilosu 60 sent həcmində idi. Biz bunu aradan qaldırmaq istəyirik. Bu xüsusi rüsumun 2 ay müddətinə dayandırılmasını istəyirik. Bazarda aparılan monitorinqlər davam etdiriləcək. İnanırıq ki, görülən tədbirlər nəticəsində bazardakı qiymətlər sabitləşəcək"**, - deyə Ş.Mustafayev əlavə edib.



## ÇİKAQODA BİRİNCİ İLLİNOYS-AZƏRBAYCAN KƏND TƏSƏRRÜFATI FORUMU KEÇİRİLİB

Aprelin 4-də ABŞ-ın Çikaqo şəhərinin tanınmış məkanlarından biri olan "Dreyk" otelində birinci İllinoys-Azərbaycan kənd təsərrüfatı forumu keçirilib. AZƏRTAC xəbər verir ki, forumun məqsədi həm Azərbaycanda, həm də ABŞ-ın nəhəng kənd təsərrüfatı...

Bax səh. 5

## İ.M.Seçenov adına Birinci MDTU-nun Bakı filialında "Açıq qapı günü" keçiriləcək

Aprelin 20-də İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin (Seçenov Universiteti) Bakı filialında "Açıq qapı günü" keçiriləcək.

Ali məktəbdən AZƏRTAC-a verilən məlumata görə, universitetdə keçiriləcək tədbirin məqsədi abituriyentləri və onların valideynlərini filialda tədris prosesi ilə, qəbul imtahanlarının keçirilməsi qaydaları ilə tanış etmək, filialın fəaliyyəti barədə onları hərtərəfli məlumatlandırmaqdır.

"Açıq qapı günü"ndə iştirak etmək üçün aşağıdakı link üzrə onlayn qeydiyyatdan keçmək lazımdır: http://mma.edu.az/?smode=register.

"Açıq qapı günü" bu ünvanda keçiriləcək: Bakı şəhəri, Hüseyn Cavid prospekti, 131.

Əlaqə telefonu: +994 (12) 599-08-10.

### Moskvada MDB Xarici İşlər Nazirləri Şurasının növbəti iclası keçirilib

Aprelin 5-də Moskvada MDB Xarici İşlər Nazirləri Şurasının növbəti iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclasda Azərbaycanı xarici işlər naziri Elmar Məmmədyarovun...



Bax səh. 4

### Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı dövlətimizin mövqeyi qəti və birmənalıdır

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini, YAP-ın Beynəlxalq əlaqələr...



Bax səh. 6

### YAP Gənclər Birliyi və "Loqos" Psixoloji və Nitq İnkişaf Mərkəzi arasında əməkdaşlıq haqqında Memorandum imzalanıb

Aprelin 5-də Yeni Azərbaycan Partiyasının (YAP) Gənclər Birliyi və "Loqos" Psixoloji və Nitq İnkişaf Mərkəzi arasında...



Bax səh. 6

### Azərbaycan beynəlxalq sülh və təhlükəsizliyin təmin olunmasında NATO ilə sıx əməkdaşlıq edir

Müasir dövrdə beynəlxalq münasibətlər sistemində kardinal dəyişikliklər baş verməkdədir. Yeni geostrateji şəraitdə milli dövlətlərin beynəlxalq münasibətlər...



Bax səh. 7

# Prezident İlham Əliyev: Bu gün açdığımız bu gözəl qəsəbə həm bizim siyasətimizi, məcburi köçkünlərə qayğımızı, həm də ölkəmizin artan imkanlarını göstərir

## *Dövlətimizin başçısı Bakının Kürdəxanı qəsəbəsində məcburi köçkün ailələri üçün yeni yaşayış kompleksinin açılışında iştirak edib*

Bakının Kürdəxanı qəsəbəsində 810 məcburi köçkün ailəsi üçün salınan yeni yaşayış kompleksi aprelin 5-də istifadəyə verilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılış mərasimində iştirak edib.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev görülən işlər barədə dövlətimizin başçısına məlumat verib. Bildirilib ki, Bakı şəhərinin ərazisindəki yataqxanalarda və digər inzibati binalarda müvəqqəti məskunlaşmış 810 məcburi köçkün ailəsi üçün Prezidentin 2011-ci ildə imzaladığı Sərəncama əsasən çoxmərtəbəli binalardan ibarət yeni yaşayış məhəlləsinin tikilməsi nəzərdə tutulub. Məhəllənin salınması üçün 15 hektar torpaq sahəsi ayrılıb. Yeni yaşayış məhəlləsinin layihələndirilməsi və tikintisi üzrə sifarişçi təşkilat funksiyaları Məcburi Köçkünlərin Sosial İnkişaf Fonduna həvalə edilib. 2018-ci ilin mart ayında başlanan tikinti işləri yüksək keyfiyyətlə sona çatdırılıb. Layihə üzrə doqquzmərtəbəli 15 bina tikilib ki, bunlardan 9-u 54, 4-ü 36, digərləri isə 108 və 72 mənzillidir. Yeni yaşayış kompleksində məktəb və uşaq bağçası, o cümlədən digər zəruri infrastruktur obyektləri - klub-icma mərkəzi, həkim məntəqəsi inşa edilib, istirahət parkı salınıb, uşaq meydançaları yaradılıb, ərazidə geniş abadlıq və yaşıllaşdırma işləri görülüb.





Kompleks salınarkən elektrik, su, qaz, istilik təchizatı və suvarma sistemlərinin, rabitə və televiziya şəbəkəsinin qurulmasına xüsusi diqqət göstərilib.

Qeyd olunub ki, bu, ölkə üzrə məcburi köçkünlər üçün salınan sayca 103-cü müasir yaşayış kompleksidir.

Yeni kompleksdəki mənzillərdə yaradılan şəraitlə tanış olan Prezident İlham Əliyevə məlumat verilib ki, buradakı mənzillərdən 72-si birotaqlı, 360-ı ikiotaqlı, 306-sı üçotaqlı, 72-si isə dördotaqlıdır. Mənzillərin ümumi sahəsi 91 min kvadratmetrdir. Yeni yaşayış kompleksində hazırda paytaxtdakı yataqxanalarda və digər inzibati binalarda müvəqqəti məskunlaşmış məcburi köçkün ailələri mənzillə təmin olunacaqlar.

Bu istiqamətdə atılan mühüm addımlardan danışarkən Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi ilə həyata keçirilən tədbirləri də vurğulamaq lazımdır. Artıq Qaradağ rayonunda 1026 məcburi köçkün ailəsi üçün yaşayış kompleksi inşa edilib. Abşeron rayonunun Masazır, Mehdiabad, həmçinin Sabunçu rayonunun Ramana qəsəbələrində 470 mənzil məcburi köçkünlərə təqdim edilib. Heydər Əliyev Fondu tərəfindən alınan 465 mənzilə Binəqədi rayonu, 9-cu mikrorayon ərazisindəki Təcili Tibbi Yardım Stansiyasının yarımçıq binasından məcburi köçkün ailələri köçürülüb. Sumqayıtdakı 1005 məcburi köçkün ailəsi üçün inşa olunmuş yaşayış binalarının da açılışı olub.



Sonra Prezident İlham Əliyev uşaq bağçasında yaradılan şəraitlə tanış olub. Burada balacaların təlim-tərbiyəsi üçün bütün imkanlar var. 280 yerlik bağça uşaqların zövqünə uyğun qurulub, onların rahatlığını, istirahətini və ilkin biliklərə yiyələnməsini təmin edəcək. Otaqlar və dəhlizlər uşaqların sevimli nağıl qəhrəmanlarının şəkilləri ilə bəzədilib. Bağçanın yerləşdiyi ərazidə geniş abadlıq-quruculuq işləri görülüb, yaşıllıq zolağı salınıb.




Qeyd edək ki, 2007-ci ildə ölkədəki 12 çadır düşərgəsinin ləğv edilməsi ilə başlanan proses nəticəsində qaçqın və məcburi köçkünlər üçün indiyədək 3,5 milyon kvadratmetr yaşayış sahəsi olan müasir qəsəbələr və çoxmərtəbəli binalardan ibarət yaşayış kompleksləri salınıb. İndiyədək 58 min 203 ailə və ya 300 min qaçqın və məcburi köçkünün mənzil şəraiti yaxşılaşdırılıb ki, ondan da 54 min 203 ailə, yaxud 272 min nəfər son 15 ilin payına düşür. Təkcə 2018-ci ildə 5903 məcburi köçkün ailəsi yeni mənzillərə köçürülüb. Ümumilikdə bu kateqoriyadan olan insanların sosial problemlərinin həlli üçün indiyədək 7,1 milyard manat vəsait xərclənib. Açılan yeni iş yerləri nəticəsində məcburi köçkünlər arasında yoxsulluq həddi son 15 ildə 75 faizdən 12 faizədək azalıb.

Daha sonra Şuşa rayon 7 nömrəli tam orta məktəbdəki şəraitlə tanış olan Prezident İlham Əliyevə məlumat verilib ki, bu təhsil ocağı 560 şagird yerlikdir. Yüksək şəraiti ilə seçilən, müasir təlim avadanlıqları ilə diqqət çəkən bu təhsil ocağında təlim-tədris üçün hər cür şərait yaradılıb. Məktəbin kompüter otağında şagirdlər informasiya texnologiyalarının sirlərinə yiyələnəcəklər. İdman zalı da zəruri avadanlıqla təchiz edilib və burada şagirdlərin bədən tərbiyəsi ilə məşğul olmaları üçün hər cür imkan var.

Prezident İlham Əliyevin təhsilin inkişafına göstərdiyi diqqət və qayğı təsdiqləyir ki, bu sahə dövlət siyasətinin mühüm prinsipləri sırasına daxil edilib. Bu proses təkcə paytaxtla məhdudlaşmır, bölgələri də əhatə edir, doğma yurdlarından didərgin düşən soydaşlarımızın təhsilinin yüksək səviyyədə qurulmasına xidmət göstərir.

Sonra Prezident İlham Əliyev məcburi köçkünlərlə görüşüb.







Dövlətimizin başçısı görüşdə çıxış edib: **"Bu gün çox əlamətdar bir gündür. Sabunçu rayonunda məcburi köçkünlər üçün salınmış yeni qəsəbənin açılışını biz birlikdə qeyd edirik. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm.**

**Mən çox şadam ki, belə gözəl qəsəbə salınıb, burada 810 ailə yaşayacaq. Bütün şərait yaradılıb. Mənzillərlə tanış oldum, geniş, yaraşıqlı mənzillərdir. Böyük məktəb tikilib, uşaq bağçası, ictimai yerlər kifayət qədər genişdir. Yəni, burada yaşamaq üçün bütün imkanlar var. Tezliklə buraya bu günə qədər ağır vəziyyətdə yaşayan köçkünlər köçəcəklər. O köçkünlər ki, uzun illər ərzində yataqxanalarda, pansionatlarda, digər uyğunlaşdırılmış yerlərdə yaşamışlar. Onların həyatında yeni dövr başlayır. Burada yaradılan şərait ən yüksək standartlara cavab verir. Gözəl, yaraşıqlı binalar, geniş otaqlar, mənzillər. Bu, bizim siyasətimizi göstərir. Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Məcburi köçkünlərin problemlərinin həlli bizim üçün ən prioritet məsələdir. Bu siyasəti Ulu Öndər həyata keçirirdi. Bildiyiniz kimi, Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə ilk şəhərcik salınmışdı. O vaxt Dövlət Neft Fondundan ilk ödəmələr məhz bu məqsədlər üçün istifadə olunmuşdur. O vaxtdan bu günə qədər 100-dən çox köçkün qəsəbəsi, şəhərciyi salınıb və köçkünlərin böyük hissəsi bu qəsəbələrdə yaşayır. Biz Bakıda, Sumqayıtda, Abşeron rayonunda, digər şəhər və rayonlarımızda məcburi köçkünlər üçün gözəl şərait yaradırıq, bu proses davam etdiriləcək. Bildiyiniz kimi, sonuncu çadır şəhərciyi 2007-ci ildə ləğv edildi. O vaxta qədər köçkünlərimizin böyük əksəriyyəti çadırlarda yaşayırdı. Təkcə keçən il məcburi köçkünlər üçün 5 mindən çox mənzil inşa edilmişdir. Onlar bu mənzillərə köçürülürlər. Bu il isə bizim planlarımızda minimum 6 min mənzilin istifadəyə verilməsi nəzərdə tutulub. Artıq bu prosesə start verilib və əminəm ki, ilin sonuna qədər biz buna nail olacağıq. Təkcə iki il ərzində təqribən 11 min məcburi köçkün ailəsi yeni evlərə köçürüləcək. Doğrudan da, böyük işlərdir və orta hesabla bu mənzillərdə təqribən 50 minə yaxın insan yaşayacaq və öz məişət problemini həll edəcək. Bu məqsədlər üçün böyük vəsait ayrılır. Bildiyiniz kimi, Dövlət Neft Fondundan uzun illərdir ki, bu məqsədlər üçün vəsait ayrılır. Dövlət Neft Fondunun yaradılması da tarixi hadisə idi. Çünki bu Fond vasitəsilə həm büdcəmizə dəstək göstərilir, həm sosial məsələlərin həlli təşkil edilir, ölkəmiz üçün strateji əhəmiyyətli layihələr icra edilir və ilk növbədə, məcburi köçkünlərin problemləri həll olunur. Əgər bizim bu imkanımız olmasaydı, əlbəttə ki, köçkünlərə bu həcmdə kömək etmək mümkün olmazdı. Məhz uğurlu neft strategiyamızın hesabına formalaşmış Dövlət Neft Fondu bu məqsədlər üçün böyük vəsait ayırıb və bundan sonda da ayıracaqdır. Bu, bizim siyasətimizdir. Biz bütün məcburi köçkünlərin problemlərini həll etməliyik və edəcəyik.**

**Onu da bildirməliyəm ki, salınan qəsəbələr arasında elələri var ki, vaxtilə işğal olunmuş və işğaldan azad edilmiş torpaqlarda salınıb. O cümlədən Horadiz şəhəri, demək olar ki, yenidən qurulub və bu gün ən gözəl yaşayış yerlərindən biridir. Şıxarx qəsəbəsində mindən çox köçkün ailəsi məskunlaşıb, hansı ki, o ərazilər işğal altında idi. Cocuq Mərcanlıda 150 evdən ibarət gözəl qəsəbə salınıb, müasir infrastruktur, iş yerləri, kommunikasiyalar yaradılıb. Yəni, bu yerlərə həyat qayıdıb.**

**Əlbəttə ki, bizim əsas məqsədimiz Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllidir. Bu istiqamətdə ardıcıl işlər aparılır. Bizim prinsipial mövqeyimizdə heç bir dəyişiklik yoxdur. Bu məsələ ölkəmizin ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüququn norma və prinsipləri, mötəbər beynəlxalq təşkilatların qərar və qətnamələri əsasında öz həllini tapmalıdır. Azərbaycan bu istiqamətdə bütün lazımi işləri görür. Həm tarixi ədalət bizim tərəfimizdədir, Dağlıq Qarabağ və digər işğal edilmiş torpaqlar bizim əzəli torpağımızdır, həm də beynəlxalq hüquq bizim mövqeyimizi dəstəkləyir. Əlbəttə ki, iqtisadi və hərbi potensial ölkəmizi daha da gücləndirir. Biz bundan sonra da bu məsələ ilə bağlı ardıcıl siyasət aparacağıq. Bir daha demək istəyirəm ki, bu münaqişə yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapa bilər.**

**O ki qaldı, məcburi köçkünlərin problemlərinin həllinə, bu problemlər kompleks şəkildə öz həllini tapır. Binalar tikilir, yeni şəhərciklər salınır, eyni zamanda, məcburi köçkünlərin sosial şəraiti yaxşılaşdırılır, onlara dövlət tərəfindən verilən sosial dəstək artır. Bu yaxınlarda çox böyük sosial paket təsdiqləndi. O cümlədən məcburi köçkünlərin müavinətləri 50 faiz artmışdır. Özü də biz bu məbləği bir neçə dəfə artırmışıq. Bu gün hər bir köçkünə verilən müavinət 50 faiz artıb. Bu, bizim köçkünlərə olan diqqətimizi əks etdirir. Digər sosial layihələr icra edilib. Bildiyiniz kimi, biz indi çox ciddi iqtisadi islahatlar aparırıq. Bu islahatlar bizim maliyyə imkanlarımızı genişləndirir. Biz bu əlavə vəsaiti, ilk növbədə, sosial məsələlərə yönəldirik. Beləliklə, keçən il prezident seçkilərində xalqın mənə verdiyi dəstək imkan verir ki, biz bütün vədləri icra edək. Seçkilər ərəfəsində bildirmişdim ki, biz yeni iqtisadi modelə keçid edəcəyik, bütün sosial məsələlərin həllinə çalışacağıq. Yəni, ciddi islahatların, iqtisadi və sosial sahədə islahatların anonsu prezident seçkiləri ərəfəsində verilmişdir. Seçkilərdən sonra ciddi islahatlara start verildi. Bu islahatlar çoxşaxəlidir. Siz və ictimaiyyət təbii ki, bu islahatları izləyirsiniz. Verdiyim qərarlar, imzaladığım sərəncamlar həyatımızın hər bir sahəsinə müsbət təsir göstərəcək. Ölkəmiz yeniləşir, müasirləşir. Biz yeni iqtisadi model üzərində işləyirik və elə etməliyik ki, ölkə iqtisadiyyatı bundan sonra da dayanıqlı şəkildə inkişaf etsin. Biz bütün dövrlərdə, hətta böhranlı illərdə də sosial məsələlərə böyük diqqət göstərmişik. 2015-2016-cı illərdə dünyada baş vermiş iqtisadi böhran bütün ölkələrə təsir etmişdir, o cümlədən bizə. Təsəvvür edin, bizim gəlirlərimiz 3-4 dəfə azaldı. Yəni, faizlərlə ölçülmürdü, dəfələrlə ölçülürdü. Bu, hər bir ölkə üçün böyük imtahandır, böyük sınaqdır. Əlbəttə ki, görülən operativ tədbirlər nəticəsində biz o böhranın fəsadlarını minimum səviyyəyə endirə bildik və ondan sonra ciddi addımlar ataraq iqtisadi sabitliyi qoruya bildik, inkişaf templərinə qədəm qoyduq. Keçən il artıq iqtisadi inkişaf başlamışdır, bu ilin iki ayının yekunları var. Bu yekunlar çox müsbətdir, iqtisadi artım kifayət qədər yüksəkdir, 3 faizə yaxındır. Qeyri-neft sektorunda sənaye istehsalı 15 faizdən çox artıbdır. Əhalinin gəlirləri artır, inflyasiya çox aşağı səviyyədədir, 2 faizdən aşağıdır, istehlak qiymətlərinə çox ciddi nəzarət edilir. Yəni, demək istəyirəm ki, iqtisadi və sosial islahatların yeni mərhələsinin startı prezident seçkilərindən sonra verilmişdir və bu gün biz bunun nəticəsini görürük. Mən deyə bilərəm ki, aparılan tədbirlər nəticəsində təkcə ilin birinci rübündə büdcə daxilolmaları 200 milyon manatdan çox artıb. Bu, nəyin hesabınadır - şəffaflığın, yeni yanaşmanın və islahatların. Bu, bizə imkan verir ki, bu vəsaiti vətəndaşların rifah halının yaxşılaşmasına yönəldək və bunu da etdik. Minimum əməkhaqqı, minimum pensiya təxminən 40 faiz, sosial müavinətlər orta hesabla 2 dəfə artıb. Şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə, məcburi köçkünlərə verilən müavinətlər, tələbələrin təqaüdləri - bütün bunlar bunun hesabına mümkün olmuşdur. Bizim iqtisadi vəziyyətimiz imkan verir ki, bu islahatları aparaq. İslahatlar bütün sahələri əhatə edir. Bir daha demək istəyirəm ki, biz inkişafın yeni mərhələsinə qədəm qoyduq.**

**Deyə bilərəm ki, bütün addımlar əhali tərəfindən yüksək qiymətləndirilir. Yerlərdən gələn məktublar və müraciətlər deməyə əsas verir ki, islahatlar xalq tərəfindən dəstəklənir, buna yüksək qiymət verilir və bu, bizə əlavə imkanlar yaradır. Biz ölkəmizi müasirləşdirməliyik, biz Azərbaycanı inkişaf etdirməliyik. Elə etməliyik ki, bütün problemlər öz həllini tapsın. İqtisadi, sosial sahələrdə, məhkəmə-hüquq, dövlət orqanları sahələrində bütün xoşagəlməz hallara son qoyulmalıdır. Azərbaycanda şəffaflıq tam təmin edilməlidir və biz buna nail olacağıq. Bu, bizə əlavə imkanlar verəcək. Büdcə daxilolmaları daha da artacaq, sosial məsələlərin həlli daha da sürətlə gedəcək.**

**Biz minimum əməkhaqqını və pensiyanı qaldıranda mən bildirmişdim ki, bu proses bundan sonra da aparılacaq. Çünki biz əsas infrastruktur layihələrini demək olar ki, icra etmişik. Düzdür, hələ ki, icra ediləsi layihələr var, o cümlədən regionların sosial-iqtisadi inkişafına dair dördüncü Dövlət Proqramında kifayət qədər böyük tədbirlər nəzərdə tutulur. Ancaq biz, ilk növbədə, əsas diqqəti vətəndaşların sosial məsələlərinə yönəldəcəyik. Bunu etmək üçün, əlbəttə ki, imkanlar var. İmkanları da biz yaradırıq.**

**Azərbaycan iqtisadi və əlbəttə, siyasi cəhətdən tam müstəqil ölkədir. Heç kimdən asılı deyilik, maliyyə vəziyyətimiz sabitdir, gəlirlərimiz artır, icra etdiyimiz böyük layihələr, o cümlədən Cənub Qaz Dəhlizi layihəsi yaxın gələcəkdə bizə əlavə gəlirlər gətirəcəkdir. Bu gəlirlər ədalətli şəkildə bölüşdürüləcək, bir daha demək istəyirəm ki, ilk növbədə, vətəndaşların sosial rifahına yönələcəkdir. Beləliklə, bu gün açdığımız bu gözəl qəsəbə həm bizim siyasətimizi, məcburi köçkünlərə qayğımızı, həm də ölkəmizin artan imkanlarını göstərir. Bu gün Azərbaycanda hər sahədə çox böyük quruculuq işləri aparılır - iqtisadi sahədə, sosial sahədə. Xəstəxanalar, məktəblər tikilir, yeni sosial obyektlər istifadəyə verilir, yollar salınır, köçkünlər üçün belə gözəl şərait yaradılır. Quruculuq, abadlıq, inkişaf bu gün Azərbaycanı fərqləndirən amillərdir.**

**Mən sizi bu gözəl hadisə münasibətilə bir daha təbrik etmək istəyirəm. Bütün məcburi köçkünlərə öz hörmətimi, ehtiramımı bildirmək istəyirəm. Hələ ağır vəziyyətdə yaşayan köçkünləri əmin etmək istəyirəm ki, onların da problemləri həll olunacaq. Onlar da**

davamı 3-cü səhifədə

# Prezident İlham Əliyev: Bu gün açdığımız bu gözəl qəsəbə həm bizim siyasətimizi, məcburi köçkünlərə qayğımızı, həm də ölkəmizin artan imkanlarını göstərir

## *Dövlətimizin başçısı Bakının Kürdəxanı qəsəbəsində məcburi köçkün ailələri üçün yeni yaşayış kompleksinin açılışında iştirak edib*

əvvəli 2-ci səhifədə

**növbə ilə öz yaşayış şəraitini yaxşılaşdıracaqlar. Bunu etmək üçün bizim iradəmiz var və biz bunu edəcəyik. Bir daha sizi ürəkdən təbrik edirəm".**

* * *

Şuşa şəhərindən məcburi köçkün Günəş Hüseynova çıxış edərək deyib: **"Cənab Prezident, Sizi salamlayıram. Bu gün yeni qəsəbənin açılışında iştirak etmək, Sizinlə bu görüşü yaşamaq bir məcburi köçkün olaraq mənim xatirəmdə uzun illər qalacaq.**

**Həyatımızın ağır, böhranlı illərində Ulu Öndərimiz Azərbaycan xalqının imdadına yetdi. Onun müəyyənləşdirdiyi siyasət və strategiya bu gün, cənab Prezident, Sizin tərəfinizdən davam etdirilir. Mən bütün məcburi köçkünlərin adından Sizə təşəkkür edirəm. Söylədiyiniz fikirlər bizim hər birimizin qəlbində gözəl duyğular yaratdı. Mən çox böyük əminliklə qeyd etmək istəyirəm ki, bizim üçün yaratdığınız bu gözəl şəraitdə müvəqqəti yaşayacağıq. İnanıram ki, işğal altındakı bütün rayonlarımız çox tez bir zamanda bundan da gözəl olacaq, həyat üçün, yaşamaq üçün lazım olan hər cür şərait təmin ediləcək.**

**Mən bütün məcburi köçkün qadınlar adından xüsusilə Mehriban xanıma təşəkkür etmək istəyirəm. Onun son illərdəki layihələri, Azərbaycan mədəniyyətinə, incəsənətinə, təhsilinə, səhiyyəsinə olan qayğısı, doğrudan da, bizim hər birimizin ürəyindəndir. Mən xahiş edirəm, Azərbaycanın gözəl xanımına, Birinci xanımına salamlarımızı çatdırasınız. O, bizə böyük dəstək göstərir.**

**Belə qəsəbələrə görə təşəkkür edirəm. Mən bilirəm, çox böyük bir əminliklə, fəxrlə, vüqarla deyirəm ki, üçrəngli bayrağımız mütləq Şuşamızda, doğma Qarabağımızda dalğalanacaq. Təşəkkür edirəm".**

* * *

Şuşa rayon 7 nömrəli tam orta məktəbin direktoru Elçin Dadaşov çıxış edərək deyib: **"Hörmətli cənab Prezident, Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı.**

**Bildirdiyiniz kimi, bu gün məcburi köçkünlər üçün yeni bir qəsəbənin açılışını etdiniz. Səkkiz yüzdən artıq məcburi köçkün ailəsinin həyat və yaşayış şəraiti burada tamamilə yaxşılaşacaq.**

**Bununla bərabər, mən Sizə bu möhtəşəm təhsil ocağının tikilməsinə görə öz minnətdarlığımı bildirirəm. Çox müasir tələblərə cavab verən təhsil ocağıdır. Bütün fənn kabinetləri, idman zalı ilə təchiz olunmuş möhtəşəm bir ümumtəhsil məktəbidir. Pedaqoji kollektivimiz Sizi əmin edir ki, burada təhsil alacaq bütün şagirdlərimizin Azərbaycan Respublikasının layiqli vətəndaşı, vətənpərvər övladları kimi yetişmələri üçün əllərindən gələni edəcək. Bununla bərabər, cənab Prezident, qeyd etdiyiniz kimi, məcburi köçkün ailələrinin həyat şəraitinin yaxşılaşdırılması siyasəti hələ Ulu Öndərimiz Heydər Əliyevin hakimiyyəti dövründə həyata keçirilmiş və Sizin tərəfinizdən çox uğurla davam etdirilir. Bu yaxınlarda məcburi köçkünlərin həyat səviyyəsinin yaxşılaşdırılması üçün müavinətin 50 faiz artırılması bütün məcburi köçkünlərin çox böyük sevincinə səbəb olmuşdur. Buna görə də biz bütün məcburi köçkünlər adından Sizə öz dərin minnətdarlığımızı bildiririk.**

**Bununla bərabər, cənab Prezident, biz çox əminik ki, işğalda olan bütün torpaqlarımızı Sizin rəhbərliyinizlə yağı düşmən tapdağından azad edəcəyik və Lələtəpədə dalğalanan üçrəngli bayrağımızı işğaldan azad edilmiş bütün torpaqlarımızda dalğalandıracağıq. Əminik ki, həmin o hadisələrdə biz bütün məcburi köçkünlər Sizin yanınızda olacağıq. Biz məcburi köçkünlər üçün gördüyünüz bütün işlərə görə Sizə dərin təşəkkürümüzü və minnətdarlığımızı bildiririk. Çox sağ olun, cənab Prezident".**

* * *

Şuşa rayon İcra Hakimiyyəti başçısının müavini Vüsalə Fətəliyeva çıxış edərək deyib: **"Cənab Prezident, bu gözəl qəsəbə Sizin böyük diqqət və qayğınızın bəhrəsidir. Bu qayğı və diqqət üçün məcburi köçkünlər adından Sizə dərin hörmətimizi və təşəkkürümüzü bildiririk.**

**Bu günlərdə Azərbaycanın tarixində böyük qələbə olan Aprel döyüşlərinin - Lələtəpənin, Talış yüksəkliklərinin azad olunmasının, Cocuq Mərcanlıya qayıdışın ildönümü ilə bağlı zəfər bayramını coşqu ilə qeyd etdik. Bu qələbə üçün də Sizə təşəkkür edirik. Çünki bu qələbə bütün dünyaya bir daha Azərbaycan Ordusunun, Azərbaycan dövlətinin qüdrətini göstərdi. Bu qələbə, bu bayramlar bütün dünyaya bir mesaj oldu. Sizin böyük diplomatik siyasətiniz, qətiyyətiniz, birmənalı şəkildə "Biz torpaqlarımızı heç kəsə bağışlamayacağıq", - deyən vurğulu hökmlü nitqiniz bir daha göstərdi ki, doğrudan da o ərazilərdən Qarabağa gedən böyük bir yol var və bu yolu qısa zamanda qət etmək mümkündür. Bu yaxınlarda Avstriyada qətiyyətli hökmünüzlə "Biz torpaqlarımızın sahibiyik, varisiyik" deməyiniz hər bir məcburi köçkünün qəlbində böyük bir ümid yaratdı ki, doğrudan da qələbə bizimlə olacaqdır.**

**Ona görə də Sizin qətiyyətinizi, Sizin bütünlüklə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı strategiyanızı, yolunuzu, istiqamətinizi hər zaman dəstəkləyirik, hər zaman yanınızdayıq. Əminəm ki, hər bir Azərbaycan oğlu, Azərbaycanın hər bir qeyrətli vətəndaşı Sizin əmrinizə müntəzirdir, torpaqlarımızı yağı düşməndən azad etməyə hər zaman hazırdır. Bu inamla deyirəm ki, tez bir zamanda doğma torpaqlarımızda ocaqlarımızı yandıracağıq. Bu, ən böyük qələbəmiz olacaq.**

**Müvəqqəti yaşayışımız üçün bizə yaratdığınız belə gözəl şəraitə görə Sizə dərin minnətdarlığımızı bildirir, ailənizin hər bir üzvünə cansağlığı, xoşbəxtlik arzulayırıq. Sizin hazırda əsgər olan oğlunuza da cansağlığı arzulayırıq. Sizin məcburi köçkünlər üçün yaratdığınız məktəblərdə məhz əsl vətəndaş, vətənpərvər oğullar böyütmək hər birimizin məsuliyyətidir. Biz öz məsuliyyətimizi dərk edərək Sizə söz veririk ki, hər bir məcburi köçkün hər zaman Sizin yanınızdadır.**

**Azərbaycan mədəniyyətini, o cümlədən Qarabağ mədəniyyətini dünyada bir silah kimi işlədən Mehriban xanımın gördüyü işlər əzəmətlidir, çox qiymətlidir. Bu gün bizim muğamımız, bizim incəsənətimiz, vaxtilə bizim şuşalı Sadıqcanın sinəsində çağlayan tarımız UNESCO-nun qeyri-maddi mədəni irs siyahısında milli sərvətimiz kimi tanınır. Bütün bunlar üçün minnətdarıq ki, Mehriban xanım ən böyük silah kimi məhz mədəniyyətdən başladı. Mədəniyyət Azərbaycan xalqının böyük siyasətidir. Biz Mehriban xanımın idmana, təhsilə, mədəniyyətə, insanların sosial həyatına diqqət və qayğısını yüksək qiymətləndiririk. Bir neçə gün bundan əvvəl yüksək texnologiyalı protezlərlə təmin olunmuş hərbçilərlə görüşdə onları doğma övladları kimi bağrına basması hər kəsin qəlbində Mehriban xanıma hörmət və ehtiram duyğularını qat-qat artırdı.**

**Siz bizim Prezidentimiz olmaqla bərabər, həm də xalqımızın çox istəkli, qəlbən inandığı şəxsiyyətsiniz. Allah Sizə ömür versin, Sizə cansağlığı arzulayırıq, təşəkkür edirik. Bizim salamlarımızı, məhəbbətimizi Mehriban xanıma çatdırmağınızı xahiş edirik".**

* * *

Sonra Azərbaycan Prezidenti İlham Əliyev çıxış edərək deyib: **"Çox sağ olun, təşəkkür edirəm. Xoş sözlərə görə sizə minnətdaram. Bizim görüşümüz Aprel döyüşlərinin ildönümünə təsadüf edir. Aprel döyüşləri bizim şanlı tariximizdir, parlaq zəfərimizdir. Azərbaycan əsgəri, Azərbaycan dövləti göstərdi ki, heç vaxt işğalla barışmayacaq.**




**Biz məsələni diplomatik yollarla, siyasi yollarla həll etmək istəyirik. Ancaq, eyni zamanda, biz hərbi gücə də malikik. Bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Aprel döyüşləri onu göstərdi ki, biz öz ərazi bütövlüyümüzü istənilən yolla bərpa edə bilərik. Onu göstərdi ki, Azərbaycan Ordusu böyük gücə malikdir. Onu göstərdi ki, bu, bizim torpağımızdır. Cocuq Mərcanlıya uzun fasilədən sonra qayıdan vətəndaşlar, o cümlədən yeniyetmələr, uşaqlar, - o insanlar ki, heç vaxt orada olmayıblar, onlar qayıdıblar oraya, - onu göstərir ki, hər bir köçkün torpaqlar işğaldan azad olunandan sonra öz doğma torpağına qayıdacaqdır.**

**Siz qeyd etdiniz, mən tam razıyam ki, bu, müvəqqəti yaşayış yeridir. Torpaqlar işğaldan azad olunandan sonra biz bütün şəhərləri yenidən quracağıq, biz bu şəhərlərə yeni həyat verəcəyik. O şəhərlər ki, indi yerlə-yeksan edilib. Orada, işğal edilmiş torpaqlarda demək olar ki, bütün binalar dağıdılıb. Beynəlxalq təşkilatlar, ATƏT-in faktaraşdırıcı missiyası bu haqda məruzə də hazırlayıb. Biz necə ki, Cocuq Mərcanlını bərpa etdik, necə ki, qısa müddət ərzində vaxtilə işğal altında olan başqa torpaqlardakı binaları, evləri, şəhərləri, kəndləri bərpa etdik, işğalda olan bütün torpaqlardakı şəhərləri, kəndləri bərpa edəcəyik. Bizdə belə iradə və güc var.**

**Eyni zamanda, siz də qeyd etdiyiniz kimi, biz bütün dünyaya göstərməliyik, haqlı olaraq, göstəririk, sübut edirik ki, Qarabağ bizim tarixi torpağımızdır. Mehriban xanımın bu sahədəki fəaliyyətini siz yüksək qiymətləndirirsiniz. Mən də yüksək qiymətləndirirəm. Çünki onun fəaliyyəti nəticəsində dünyanın aparıcı beynəlxalq təşkilatlarında bu məsələ ilə bağlı təqdimatlar, simpoziumlar, konfranslar, dəyirmi masalar keçirilmişdir. Bizim tarixi, mədəni irsimiz olan muğam sənəti, tar və digər milli sərvətlərimiz UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına salınmışdır. Bütün bunlarla bağlı sərgilər, təqdimatlar keçirilir, yəni, biz Qarabağ həqiqətlərini dünyaya çatdırırıq. Çünki vaxtilə, xüsusilə müstəqilliyimizin ilk illərində erməni lobbisi tərəfindən belə bir rəy formalaşdırılmağa cəhd edilirdi ki, guya Qarabağ onların torpağıdır. Bizim imkanımız yox idi, lobbimiz yox idi, bizim xaricə çıxışımız çox məhdud idi. Amma bu gün biz bütün dünyaya həqiqətləri çatdırırıq və tarixi sənədlər əsasında, maddi-mədəni irs əsasında sübut edirik ki, bu, bizim tarixi diyarımızdır. Mən bildirəndə ki, tarixi ədalət bizim tərəfimizdədir, məhz bunu nəzərdə tuturdum. Qədim xəritələrə baxanda görürük ki, Dağlıq Qarabağda və ətraf bölgələrdə bütün toponimlər Azərbaycan mənşəlidir. Tarixi ədalət, beynəlxalq hüquq, bütün beynəlxalq təşkilatlar Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Bu da bizim böyük diplomatik və siyasi uğurumuzdur. Əlbəttə ki, iqtisadi potensialımız, hərbi gücümüz də mühüm amildir.**

**Biz çalışırıq ki, məsələ sülh yolu ilə həll olunsun. Ancaq, eyni zamanda, biz öz ordu potensialımızı, hərbi gücümüzü artırırıq və bundan sonra da bu istiqamətdə bütün lazımi tədbirlər görüləcəkdir. Bir daha sizi təbrik edirəm, sizə uğurlar, cansağlığı arzulayıram. Sağ olun".**

* * *

Sonda xatirə şəkli çəkdirilib.

* * *

Qeyd edək ki, Prezident İlham Əliyevin Azərbaycanın ərazi bütövlüyünün təmin olunması istiqamətində həyata keçirdiyi tədbirlər, qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması üçün görülən işlər bu kateqoriyadan olan soydaşlarımızın hər zaman diqqət və qayğı ilə əhatə olunduğunu göstərir. Qaçqın və məcburi köçkünlərin müvəqqəti yaşayış yerləri və çadırlardan müasir tələblər səviyyəsində inşa edilən qəsəbələrə köçürülməsi dövlətin bu insanlara göstərdiyi diqqətin təzahürüdür. Qaçqın və məcburi köçkünlərin maddi rifahının yaxşılaşdırılması üçün dövlət proqramları qəbul edilib, sosial müavinətlərin artırılması istiqamətində mühüm tədbirlər görülüb. Bu işlərin davamı olaraq Prezident İlham Əliyev bu il fevralın 26-da "Məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətin artırılması haqqında" Sərəncam imzalayıb. Sərəncama əsasən, vahid aylıq müavinətin məbləği 2019-cu il aprelin 1-dən 50 faiz artırılıb.

# Belçika jurnalı Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevaya həsr olunmuş məqalə dərc edib




ARTICLE

AZERBAIJAN'S FIRST LADY MEHRIBAN ALIYEVA

Great woman of modern history of Azerbaijan

By Seymur Mammadov

Recently, on February 21, 2019, it was two years since the appointment of the First Lady of Azerbaijan, the head of Heydar Aliyev Foundation, the chairperson of Azerbaijani Culture Friends Foundation, the President of Azerbaijani Gymnastics Federation, and the goodwill ambassador of UNESCO and ISESCO Mehriban Aliyeva to the position of First Vice President of the country, whose name is associated with a significant number of important events, international sports events and revolutionary commitments to improve the well-being of citizens. Azerbaijani President Ilham Aliyev signed a decree on this appointment on February 21, 2017, and from that date a new countdown began — the time of major changes in the social and political life of Azerbaijan. President Ilham Aliyev and First Vice President Mehriban Aliyeva shoulder to shoulder, by joint efforts, make titanic efforts for

***Brüsseldə nəşr olunan və geniş beynəlxalq oxucu auditoriyasına malik "Diplomatic World" jurnalında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevaya həsr olunmuş "Müasir Azərbaycan tarixinin böyük qadını" (bax: http://diplomatic-world.com/?p=3204) sərlövhəli məqalə dərc edilib. Məqalənin müəllifi "EurAsiaAz" beynəlxalq ekspert klubunun direktoru, Vzglyad.az xəbər agentliyinin baş redaktoru Seymur Məmmədovdur.***

***AZƏRTAC məqalənin tərcüməsini təqdim edir.***

2019-cu il fevralın 21-də Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, Azərbaycan Mədəniyyət Fondunun rəhbəri, Azərbaycan Gimnastika Federasiyasının prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın ölkənin Birinci vitse-prezident vəzifəsinə təyin edilməsinin ikinci ildönümü tamam olub. Ölkədə keçirilmiş çoxsaylı mühüm tədbirlərin, həmçinin beynəlxalq idman tədbirlərinin təşkili, vətəndaşların həyat tərzinin yaxşılaşdırılması istiqamətində atılmış bir sıra inqilabi addımlar məhz onun adı ilə bağlıdır.

Mehriban Əliyeva Azərbaycan Prezidenti İlham Əliyevin 2017-ci il 21 fevral tarixli Sərəncamı ilə Birinci vitse-prezident təyin edilib. Həmin dövrdən ölkə tarixində yeni səhifə açılıb. Mehriban Əliyevanın bu vəzifəyə təyin edilməsi ilə Azərbaycanın sosial-siyasi həyatında ciddi dəyişikliklər başlayıb. Bu gün dövlət başçısı İlham Əliyevlə birgə, Birinci vitse-prezident Mehriban Əliyeva da ölkənin tərəqqisi üçün çalışır, ciddi səylər göstərir. Həyata keçirilən əsaslı islahatlar nəticəsində əhalinin rifahı yüksəlir, əməkhaqları, pensiyalar, sosial müavinətlər artırılır.

Daxili islahatlarla yanaşı, xaricdə Azərbaycanın nüfuzunun artması üçün də ciddi addımlar atılır. Bu, dövlətin xarici siyasətində prioritetdir. Konkret olaraq, Azərbaycan tarixinin, mədəniyyətinin, musiqisinin və incəsənətinin xaricdə tanıdılmasında ən böyük rol məhz Mehriban Əliyevaya məxsusdur. Son illər beynəlxalq arenada Azərbaycanın mədəniyyət sahəsində nüfuzu həqiqətən də çox artıb. Məhz Birinci vitse-prezidentin təşəbbüsü ilə Azərbaycanın zəngin tarixi və mədəniyyətinin Rusiya, İtaliya, Fransa, Çin daxil olmaqla, müxtəlif ölkələrdə tanıdılması üçün uğurlu siyasət aparılır. Ötən ilin dekabrında Pekində təşkil olunmuş Azərbaycan-Çin dostluq konserti buna bariz nümunə sayıla bilər. Belə tədbirlərin təşkilinin təməlində Heydər Əliyev Fondu ilə Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyası arasında 2017-ci ilin noyabrında imzalanmış dostluq memorandumu dayanır.

Azərbaycanın Birinci vitse-prezidenti ötən il Fransa və İtaliyada səfərdə olub, orada rəsmi görüşlər keçirib. Məhz Mehriban Əliyevanın fəaliyyəti sayəsində bu gün İtaliya və Fransa ictimaiyyəti Azərbaycan mədəniyyətinin zəngin tarixi haqqında daha geniş məlumata malikdir. Onun İtaliyaya 2018-ci ilin sentyabrında etdiyi səfər zamanı Romada "Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi və Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında strateji tərəfdaşlıq münasibətləri" adlı konfrans da təşkil olunmuşdu. Ötən ilin mayında isə Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Parisdə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr edilmiş "Şərqin birinci dünyəvi parlamentli respublikası: dəyərlər və irs" adlı elmi konfrans keçirilib.

Mehriban Əliyeva Azərbaycan tarixi və mədəniyyətinin xaricdə tanıdılması istiqamətində göstərdiyi səylərlə yanaşı, Avropa ölkələrinin və digər dövlətlərin tarixi və mədəni irsinin qorunması işinə də diqqət ayırır. Məsələn, Heydər Əliyev Fondu indiyədək müxtəlif ölkələrdə abidələrin, tarixi binaların və muzeylərin bərpasına yardım göstərib. Fond Strasburqda Kafedral Kilsəsinin, Versaldakı bəzi obyektlərin, həmçinin Müqəddəs Marçellinio və Pietro katakombalarının, Romadakı Kapitolini Muzeyinin "Filosoflar zalı"nın və digər tarixi abidələrin bərpasını maliyyələşdirib. Onun bu təşəbbüsləri beynəlxalq ictimaiyyət tərəfindən təkcə müsəlman qadınının deyil, həm də müsəlman dünyasının xristianlığın müqəddəs abidələrinin qorunub saxlanmasına töhfəsi kimi qəbul edilir.

Mehriban Əliyeva təkcə müsəlman və xristian aləminə aid tarixi-mədəni abidələrin müdafiəçisi deyil. O, ümumiyyətlə xeyirxahlığa xüsusi önəm verir. Mehriban Əliyevanı insanların, xüsusilə köməyə və qayğıya ehtiyacı olan uşaqların yanında tez-tez görmək mümkündür. Heydər Əliyev Fondu Yeni il, Novruz, Qurban, Ramazan bayramlarında, həmçinin digər mühüm günlərdə uşaqlar üçün müxtəlif tədbirlər təşkil edir. Azərbaycanın Birinci vitse-prezidenti bəzən hətta öz ad gününü uşaq evində keçirir. Ciddi xəstəliklərdən (onkoloji xəstəliklər, talassemiya və s.) əziyyət çəkən uşaqlar, çoxuşaqlı ailələr, aztəminatlı insanlar, Ermənistanın təcavüzü nəticəsində doğma evlərindən qovulmuş məcburi köçkünlər Mehriban Əliyevanın qayğısını hər zaman hiss edirlər. Bir sözlə, birinci xanım öz səlahiyyətlərindən Azərbaycan vətəndaşlarına, köməyə ehtiyacı olan şəxslərə yardım göstərmək üçün istifadə edir. Bu ilin yanvar-fevral aylarında Mehriban Əliyeva Qarabağ müharibəsi zamanı əlil olmuş şəxslərə və digər qrup insanlara da yardım əlini uzadıb. Məsələn, Birinci vitse-prezidentin bu ilin fevralında verdiyi tapşırığa əsasən, yaralanmış hərbçilərin yüksək texnologiyalı protezlərlə təmin olunması proqramı çərçivəsində daha bir qrup Qarabağ müharibəsi əlili protezləşməyə cəlb edilib. Bundan əlavə, o, Azərbaycan Hərbi Hava Qüvvələrinin əfsanəvi pilotu olmuş Aleksey Şvarevin ailəsinə yardım göstərib. A.Şvarev 1995-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarından təqaüdə çıxıb və bu gün Ukraynada yaşayır. Onun qızı Yuliya Şvareva onurğa beynində ependioma xəstəliyindən əziyyət çəkir. Bu xəstəliyin müalicəsi bahalı olduğundan, ailənin klinikaya böyük məbləğdə borcu yaranmışdı. Hətta borcun ödənilməsi üçün ailə evini satmaq haqqında düşünürdü. Mehriban Əliyeva bundan xəbər tutan kimi, döyüşçü zabitin ailəsinə maddi yardım göstərilməsi barədə tapşırıq verib.

Bu da son deyil. Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva bu ilin fevralında Ucar rayonunun Qaracallı kənd sakini, ağır mənzil-məişət şəraitində yaşayan ikinci qrup Qarabağ müharibəsi əlili Şöhrət Qasımov üçün fərdi ev tikilməsi tapşırığını da verib. Bundan başqa, Bərdə rayonunda azyaşlı oğlu ilə birgə çətin şəraitdə yaşayan, Hepatit B və onkoloji xəstəliklərdən əziyyət çəkən Nazilə Musayevanın əməliyyat olunması və gələcək müalicəsi ilə bağlı bütün xərclər Heydər Əliyev Fondu tərəfindən təmin ediləcək.

Bir sözlə, Azərbaycanın birinci xanımı xeyirxahlığı və humanizmi ilə ölkənin adını bütün dünyada ucaldır. O, öz nümunəsi ilə müasir Azərbaycan qadınının gözəlliyini, köməyə və qayğıya ehtiyacı olan şəxslərə sonsuz məhəbbətini, tolerantlığını, humanistliyini nümayiş etdirir. Bu gün Azərbaycan qadını Mehriban Əliyevanın nüfuzu ilə, həmçinin qayğıya və köməyə ehtiyacı olan insanlara sevgisi ilə qürur duyur, ondan nümunə götürür.

Heydər Əliyev Fondunun maliyyə dəstəyi ilə ölkədə yüzlərlə bağça, uşaq evi, park, məktəb, idman kompleksi, dini abidə tikilib və ya bərpa olunub. Fond təhsil, ətraf mühit, səhiyyə, informasiya və kommunikasiya texnologiyaları, idman sahələrində də fəaldır, həmçinin "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində musiqi festivalları təşkil edir, tarixi əhəmiyyətə malik dini-mədəni abidələrin bərpasını həyata keçirir.

Sonda bir məqamı xatırlatmaq yerinə düşərdi: 1918-ci il mayın 28-də yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti Şərqdə qadınlara seçki hüququ vermiş ilk ölkə olub. Azərbaycan bu mənada ABŞ və Avropanın bir çox ölkəsini belə qabaqlayır.

Bu gün Azərbaycan qadınları ölkənin inkişafında, çiçəklənməsində fəal iştirak edirlər. Onlar ölkənin bütün sahələrində, bütün səviyyələrdə ciddi rol oynayırlar. Bu məsələdə Azərbaycanın Birinci vitse-prezidenti, birinci xanım Mehriban Əliyevanın xidmətləri danılmazdır. Bu gün güclü ictimai-siyasi xadimi olan Mehriban Əliyeva nümunə götürüləcək şəxsdir. Qərb KİV-ləri xüsusilə postsovet məkanında birinci xanım institutunun əhəmiyyəti və rolunun Mehriban Əliyevanın sayəsində artdığını yazır ki, bu da təsadüf deyil.

# AMEA-da akademik Ramiz Mehdiyevin “Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında” kitabının təqdimatı olub






Aprelin 5-də Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Rəyasət Heyətində Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin “Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında” kitabının təqdimat mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbiri giriş sözü ilə açan AMEA-nın prezidenti, akademik Akif Əlizadə təqdimatı keçirilən bu kitabın tarixşünaslığımıza sanballı töhfə və gənc tarixçilər üçün dəyərli mənbə olduğunu bildirib. Akif Əlizadə qeyd edib ki, elmi faktlara əsaslanan bu sanballı kitab zəngin fikir və mülahizələrlə xanlıqlar dövrünə aid bir çox yanlış yanaşma və şərhləri aradan qaldırmaq baxımından böyük əhəmiyyətə malikdir. Nəşr Azərbaycan tarixşünaslığında, ictimai fikrində məsələyə münasibətdə daha sistemli və ədalətli baxışın formalaşmasına geniş imkanlar yaradacaq.

AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli akademik Ramiz Mehdiyevin ictimai-siyasi fəaliyyətini qeyd etməklə yanaşı, Azərbaycan dövlətinin ideoloji əsaslarını təşkil edən bir sıra sanballı tədqiqat əsərlərinin müəllifi olduğunu bildirib. İ.Həbibbəyli “Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında” kitabının da akademikin əvvəlki fundamental tədqiqatları kimi böyük elmi əhəmiyyətə malik olduğunu, yeni tədqiqatlar üçün imkanlar açdığını söyləyib. O, bu kitabı zəngin arxiv materialları, mühüm tarixi qaynaqlar, hərtərəfli müqayisələr, dərin təhlillər əsasında yazılmış, tarixşünaslığımıza töhfə olan əsər kimi dəyərləndirib. Bildirib ki, akademik Ramiz Mehdiyevin Səfəvilər, Nadir şah haqqında tədqiqatları Azərbaycan tarixşünaslıq elmində ən mühüm nailiyyətlərdən biridir. “Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında” kitabı da bu tədqiqatların məntiqi davamı olaraq, həm dəyərli elmi mənbə, həm də gənc tədqiqatçılar üçün istiqamətverici proqramdır. İsa Həbibbəyli kitabı xanlıqlar dövrümüzə yeni elmi və obyektiv baxış kimi dəyərləndirib.

AMEA-nın Abbasqulu Ağa Bakıxanov adına Tarix İnstitutunun direktoru, akademik Yaqub Mahmudov, Fəlsəfə İnstitutunun direktoru, fəlsəfə üzrə elmlər doktoru, professor İlham Məmmədzadə, Qafqazşünaslıq İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Musa Qasımlı, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda şöbə müdiri, filologiya üzrə elmlər doktoru, professor Tahirə Məmməd, Qafqazşünaslıq İnstitutunun ümumi işlər üzrə direktor müavini Şahin Yəhyayev və digər çıxış edənlər akademik Ramiz Mehdiyevi aktual, tədqiqi zəruri olan kəskin problemləri öncədən görmək və yüksək elmi səviyyədə araşdırmaq qabiliyyəti ilə fərqlənən alim kimi xarakterizə ediblər. Qeyd olunub ki, akademik Ramiz Mehdiyevin alim və vətəndaş mövqeyini əks etdirən “Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında” kitabı tarixşünaslığımızda hadisədir. Müəllif ilk dəfə olaraq həmin dövrü siyasi və tarixi nöqteyi-nəzərdən mahiyyətcə yeni kontekstdə təhlil edib, bir çox qaranlıq məqamlara aydınlıq gətirərək, onilliklər ərzində formalaşmış stereotipləri qırmağa çalışıb. Eyni zamanda, tarixşünaslığımızın həmin dövrlə bağlı aktual problemlərinə toxunaraq onların optimal həll yollarını göstərib.

Tədbirdə, həmçinin bildirilib ki, sözügedən kitab Azərbaycan tarixinin ən ağrılı və həssas mərhələlərindən sayılan xanlıqlar dövrünün indiyədək tarixşünaslığımıza məlum olmayan siyasi sənədlər əsasında qiymətləndirilməsi istiqamətində atılmış mühüm elmi addımdır. Ümumilikdə 22 orijinal sənədin daxil edildiyi toplu xanlıqlar dövrünün siyasi təhlilinə və tarixi dəyərləndirilməsinə həsr olunan sanballı tədqiqat işidir. Nəzərə çatdırılıb ki, müəllif xanlıqlar dövrünün indiyədək ciddi elmi mübahisələrin predmeti olan bir sıra mühüm problemlərinə, hadisə və şəxsiyyətlərə faktlar və etibarlı elmi mənbələr, arxiv sənədləri əsasında münasibət bildirir, həmin tarixi mərhələyə obyektiv qiymət verməyə mane olan məsələlərə aydınlıq gətirir.

Vurğulanıb ki, nəşrdə təqdim edilən və müvafiq şərh və izahlarla müşayiət olunan sənədlər müxtəlif tarixi dövrlərin real mənzərəsinə aydınlıq gətirmək baxımından böyük əhəmiyyətə malikdir. Həmçinin tanınmış alimlərin xanlıqlar dövrünün hadisələri ilə bağlı maraqlı fikirlərinə istinad edilən kitabda oxucuya həmin dövrün mühüm şəxsiyyətləri və hadisələrinə dair yığcam məlumat verilir.

Qeyd olunub ki, nəşr həm peşəkar tarixçilər və mənbəşünaslar, həm də Azərbaycan tarixi ilə dərindən maraqlanan oxucular üçün nəzərdə tutulub.

# Yanğından zərər çəkmiş sahibkarlara maddi yardımın ödənilməsinə başlanılıb







Xəbər verdiyimiz kimi, Bakının Nizami rayonunda yerləşən ticarət mərkəzində baş vermiş yanğında zərər çəkmiş sahibkarlara maddi yardım göstərilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamına uyğun olaraq, zərər çəkmiş sahibkarlara maddi yardım göstərilməsi qaydası təsdiq edilib və dövlət qeydiyyatına alınıb. Aprelin 4-dən İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin inzibati binasında zərər çəkmiş sahibkarlardan maddi yardımın göstərilməsi ilə bağlı sənədlərin qəbuluna başlanılıb. Həmin gün 93 sahibkarın maddi yardımla bağlı ərizəsi qəbul edilib. İşçi Qrupu tərəfindən 57 sahibkara 570 min manat ödənilməsi qərara alınıb, 36 müraciət üzrə araşdırma aparılır.

AZƏRTAC xəbər verir ki, aprelin 5-də maddi yardımın göstərilməsi üçün daha 90 sahibkardan ərizə qəbul olunub. Ümumilikdə, indiyədək 183 sahibkar maddi yardımla bağlı ərizə ilə müraciət edib.

Maddi yardım göstərilməsi qaydasına əsasən, müəyyən olunmuş vəsaitlərin artıq zərər çəkmiş sahibkarların bank hesablarına köçürülməsinə başlanılıb. Ödənişlər “Kapital Bank” və “TuranBank” vasitəsilə həyata keçirilir. Vəsaitlər sahibkarlara bank kartları vasitəsilə nağdsız şəkildə verilir və banklar tərəfindən maddi yardımdan xidmət haqqı tutulmur.

Həmin gün iqtisadiyyat naziri Şahin Mustafayevin iştirakı ilə yanğından zərər çəkmiş 57 sahibkara bank kartları təqdim edilib.

Sahibkarlar onlara göstərilən böyük diqqət və qayğıya görə dövlət başçısına minnətdarlıqlarını bildiriblər.

Zərər çəkmiş sahibkarlardan sənədlərin qəbulu və maddi yardımın ödənilməsi prosesi davam edir.

# Elmar Məmmədyarov: Lavrovla görüşdə Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınması məsələsini də müzakirə etdik



Azərbaycan və Rusiya xarici işlər nazirləri Elmar Məmmədyarov və Sergey Lavrov MDB Xarici İşlər Nazirləri Şurasının Moskvada keçirilən növbəti iclası çərçivəsində ikitərəfli görüş keçiriblər.

AZƏRTAC xəbər verir ki, görüşdən sonra Elmar Məmmədyarov jurnalistlərə bildirib ki, tərəflər təkcə ikitərəfli münasibətlərin gündəliyini deyil, həm də Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizama salınması məsələsini müzakirə ediblər. **“Ən yaxın günlərdə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Minsk qrupunun həmsədrlərinin iştirakı ilə görüşü keçiriləcək. Düşünürəm ki, Sergey Lavrov da görüşdə iştirak edəcək. Ehtimal ki, görüş Moskvada keçiriləcək”**, - deyə nazir bildirib.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizama salınması prosesindən danışan nazir bildirib ki, ümumilikdə, Vyana görüşü çətinliklə olsa da təmas nöqtələrinin sezildiyini göstərdi: **“Təbii ki, heç kim münaqişənin tezliklə nizama salınacağını gözləmir. Azərbaycan Prezidenti ilə Ermənistanın baş nazirinin görüşündən üç saat sonra Ermənistanın müdafiə naziri yeni müharibə, yeni ərazilər barədə bir bəyanat verdi. Düşünürəm ki, bu, daxili auditoriya üçün nəzərdə tutulmuşdu. Mən erməni tərəfinə hər zaman sual verirəm ki, 30 illik münaqişə dövründə Ermənistan vətəndaşları nə əldə ediblər? Ermənistanda yoxsulluğun səviyyəsi 40 faizdən çoxdur, demoqrafik vəziyyət çox kəskin səviyyəyə çatıb. Azərbaycan tərəfi dəfələrlə deyib ki, ermənilər mütləq qonşuları ilə normal, mehriban qonşuluq əlaqələri qurmalıdır. Onlar, nə qədər gülməli olsa da, mütəmadi olaraq deyirlər ki, diaspor bizə kömək edəcək. Amerika vətəndaşlığından imtina edib arvadı və iki oğlu ilə 1990-cı illərdə Ermənistana gələn Vardan Oskanyandan başqa diaspordan indiyədək Ermənistana kim köçüb? Deməli, etibar etmirlər”.**

Nazir qeyd edib ki, nizamasalma mürəkkəb prosesdir: **“Əhalini sülhə hazırlamaq lazımdır. Onlar deyirlər ki, sülh əvəzinə ərazilərin qaytarılması Ermənistan üçün mümkün deyil. Yaxşı, qoy onda rifah əvəzinə sülh olsun. Ermənistan Azərbaycanla 30 illik müharibə dövründə nə əldə edib? Onlar bizdən soruşur: “Bəs siz nə əldə etmisiniz”. Mən cavab verirəm ki, iqtisadiyyatımız inkişaf edib, dəmir yolları, avtomobil yolları salınıb, neft kəmərləri çəkilib. Mən Azərbaycanın regionda iqtisadi liderliyini sübut edən hələ çox nümunə gətirə bilərəm. Ermənilər, ilk növbədə, əhalini inandırmalıdırlar. Çünki bu, gələcəkdir. Onlar deyirlər ki, Qarabağdakılar çətin insanlardır. Ancaq bu, bizim problemimiz deyil. Siz izah etməlisiniz ki, Azərbaycanla münasibətləri nizama salmasa, Ermənistanın gələcəyi yoxdur”.**

E.Məmmədyarov vurğulayıb ki, Azərbaycan öz tərəfindən sülhə hazırlıq üçün tədbirlər görür. **“Biz Azərbaycan və Ermənistan jurnalistlərinin qarşılıqlı səfərləri barədə danışıqlar aparırıq. Sergey Lavrov ilə görüşdə də bu barədə danışdıq. Bunu hansı formada edəcəyimiz barədə müzakirə apardıq”.**

Humanitar addımlardan danışan nazir deyib: **“Nə üçün Ermənistanda əsirlikdə olan Şahbaz Quliyev və Dilqəm Əsgərovun qohumları gəlib onlarla görüşə bilmirlər? Nə üçün onlar qəbiristanlığa gedə bilməzlər? Onlar da bizə Karapetyanla bağlı sual verirlər. Odur ki, biz insanların ünsiyyəti üçün şərait yaratmalıyıq. İnsanlar nə qədər ünsiyyətdə olsalar, o qədər yaxşıdır. Başqa variant yoxdur. Başqa variant müharibədir”.**

# Moskvada MDB Xarici İşlər Nazirləri Şurasının növbəti iclası keçirilib



Aprelin 5-də Moskvada MDB Xarici İşlər Nazirləri Şurasının növbəti iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasda Azərbaycanı xarici işlər naziri Elmar Məmmədyarovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.

Nazirlər əvvəlcə məhdud tərkibdə iclasın gündəliyinə daxil edilmiş məsələləri müzakirə ediblər.



İclas iştirakçıları MDB Dövlət Başçıları Şurasının Böyük Vətən müharibəsinin başlanmasının 80-ci ildönümü ilə bağlı Bəyanatının layihəsi, MDB Xarici İşlər nazirlikləri arasında tərəfdaşlığın fəallaşdırılmasına dair fəaliyyət proqramı, Böyük Vətən müharibəsi abidlərinin və məzarlıqlarının qorunması, MDB ölkələrinin fundamental tədqiqatlar sahəsində dövlətlərarası münasibətlərin əlaqələndirilməsi və MDB Xarici İşlər Nazirləri Şurasının növbəti iclasının keçirilməsi ilə bağlı məsələləri müzakirə ediblər.

Sonra MDB Xarici İşlər Nazirləri Şurasının geniş tərkibdə görüşü keçirilib.

Görüşdə 2018-2019-cu illər MDB çərçivəsində Xarici İşlər nazirlikləri arasında məsələhətləşmələr Planına, MDB ölkələrinin muzey işi sahəsində əməkdaşlığı haqqında saziş layihəsinə, azadlıqdan məhrumetmə ilə bağlı olmayan cəzaların yerinə yetirilməsinin ötürülməsi haqqında konvensiyanın layihəsinə, MDB ölkələrində informasiya texnologiyalarından istifadə olunmaqla törədilən cinayətkarlıqla mübarizə sahəsində kadrların hazırlanmasına dair sənədlər imzalanıb.

Sonda Rusiya xarici işlər naziri Sergey Lavrov, MDB İcraiyyə Komitəsinin sədri Sergey Lebedev və Türkmənistanın xarici işlər naziri Rəşid Meredov mətbuat konfransı keçiriblər.

Mətbuat konfransında çıxış edən Türkmənistanın xarici işlər naziri R.Meredov MDB Xarici İşlər Nazirləri Şurası üzvlərinin Birlik çərçivəsində əməkdaşlığı inkişaf etdirmək barədə yekdil razılığa gəldiklərini qeyd edib.



MDB İcraiyyə Komitəsinin sədri Sergey Lebedev çıxışında bildirib ki, MDB Xarici İşlər Nazirləri Şurasının bu iclasında mühüm qərarlar qəbul edilib. MDB XİN-lərinin qarşılıqlı fəaliyyəti, beynəlxalq təşkilatlarda əlaqəli iştirakı və digər vacib məsələlərlə bağlı razılıq əldə edilib. MDB-nin tezliklə fəaliyyətini dayandıracağı barədə şayiələrin əsassız olduğunu qeyd edən S.Lebedev bu il təşkilat çərçivəsində keçiriləcək mühüm tədbirlərin əhəmiyyətini vurğulayıb. O, MDB-də Türkmənistanın sədrliyini yüksək qiymətləndirib.

Rusiyanın xarici işlər naziri Sergey Lavrov beynəlxalq aləmdə suveren dövlətlərin daxili işlərinə qarışılması, tarixin saxtalaşdırılması kimi mövcud çağırışların qarşısının alınmasının vacibliyini vurğulayıb. O, bu sahədə MDB ölkələrinin fəaliyyətinin əlaqələndirilməsinin və BMT nizamnaməsinin norma və prinsiplərinə riayət olunmasının vacibliyini vurğulayıb.

MDB Xarici İşlər Nazirləri Şurasının növbəti iclası oktyabrın 10-da Aşqabadda keçiriləcək.

# Ali Məhkəmədə geniş müşavirə keçirilib



Azərbaycan Respublikası Prezidentinin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanından irəli gələn vəzifələrin icrasının təşkili ilə bağlı Ali Məhkəmədə Ramiz Rzayevin sədrliyi ilə geniş müşavirə keçirilib.

Ali Məhkəmənin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müzakirələrdə dövlətimizin başçısının rəhbərliyi ilə reallaşdırılan islahatlar çərçivəsində məhkəmə sisteminin inkişafı üzrə mühüm tədbirlərin həyata keçirildiyi, o cümlədən qanunvericiliyin təkmilləşdirildiyi, xüsusi dövlət proqramlarının qəbul edildiyi, ədalət mühakiməsinə əlçatanlığın asanlaşdırıldığı, məhkəmə və ədliyyə infrastrukturunun müasirləşdirildiyi, məhkəmə-hüquq sistemində kompleks tədbirlərin görüldüyü qeyd edilib. Vurğulanıb ki, dövlətimizin başçısı yeni Fərmanı ilə bu sahədə islahatların dərinləşdirilməsi, məhkəmələrə müraciət imkanlarının daha da genişləndirilməsi, məhkəmələrin fəaliyyətində şəffaflığın artırılması, məhkəmə icraatının səmərəliliyinin yüksəldilməsi, süründürməçiliyin və digər mənfi halların aradan qaldırılmasının yeni mərhələdə müasir çağırışlara uyğun və sistemli davam etdirilməsi, məhkəmə sisteminin gələcək inkişafı üçün strateji prioritetlər müəyyənləşdirilib.

Qeyd olunub ki, Fərmanın icrası ilə bağlı Azərbaycan Respublikası Ali Məhkəməsinin sədrinin əmri ilə xüsusi komissiya yaradılıb. Fərmandan irəli gələn məsələlərin icrası ilə bağlı Komissiya tərəfindən tədbirlər planı işlənib hazırlanıb. Tədbirlər planının təxirə salınmadan həyata keçirilməsinə başlanıb.

# "Aprel döyüşlərinin zəfər bayraqlarına düzlən!"









Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin və Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) birgə təşkilatçılıcı ilə 2016-cı ildə qazandığımız Aprel zəfərinin üçüncü ildönümünə həsr olunmuş "Aprel döyüşlərinin zəfər bayraqlarına düzlən!" devizi altında kütləvi vətənpərvərlik tədbiri keçirilib.

Öncə tədbir iştirakçıları UNEC-in qarşısındakı Memorial xatirə kompleksinin qarşısına əklil qoyublar.

Tədbiri giriş sözü ilə açan Əməkdar incəsənət xadimi, polkovnik Abdulla Qurbani bildirib ki, 2016-cı il aprelin əvvəllərində Azərbaycanın ön xətt mövqeləri və yaşayış məntəqələri Ermənistan silahlı qüvvələri tərəfindən intensiv artilleriya atəşinə məruz qalanda ordumuzun bölmələri əks-həmlə ilə təxribatların qarşısını aldı. Bu, Aprel döyüşləri kimi tarixləşdi. Aprel döyüşləri bütün dünyaya Azərbaycan Ordusunun gücünü, qələbə əzmini, ədalətin bərpa olunacağını göstərdi.

Tədbirdə dövlət başçımızın Azərbaycan Ordusunun aprel qələbəsinin ildönümü ilə əlaqədar bir qrup hərbçi ilə görüşündə söylədiyi fikirlər səsləndirilib: **"Biz sadəcə olaraq çalışırıq ki, məsələ sülh yolu ilə həll olunsun. Ancaq son illər ərzində aldığımız ən müasir, - mən onu bir daha qeyd etmək istəyirəm, - dünyanın ən müasir silahları bizə çox böyük imkan yaradır. Aprel döyüşləri zamanı biz sadəcə olaraq imkanlarımızın cüzi bir faizini nümayiş etdirdik. Bu, bir daha onu göstərir ki, Aprel döyüşləri Ermənistanın təxribatı idi. İndi bəziləri müxtəlif versiyalar, fərziyyələr irəli sürürlər ki, Azərbaycan əməliyyat keçirməyi planlaşdırırdı, o da sonra dayandırıldı və sair. Birincisi, biz nəyi etmək istəmişiksə, onu da etmişik. Əks-hücum əməliyyatında qarşımızda hansı hədəflər durmuşdusa, biz o hədəflərə də çatdıq. Bu gün hərbçilər və beynəlxalq mütəxəssislər bilirlər ki, əldə etdiyimiz strateji mövqelər tamamilə vəziyyəti dəyişdirib. Əgər Aprel döyüşləri zamanı genişmiqyaslı əməliyyat keçirmək fikrində idiksə, biz öz hərbi potensialımızdan istifadə edərdik. Bunlar sirr deyil. Burada hər şey beynəlxalq monitorinq altındadır. Bilirlər ki, bizim uzaqmənzilli raketlərimizin, pilotsuz döyüş aparatlarımızın gücü nədən ibarətdir. Biz onlardan demək olar ki, istifadə etmədik. Amma əgər istifadə etsək, işğal olunmuş torpaqlarda düşmənin daşı-daş üstdə qalmayacaq. Bunu onlar bilsinlər və özünü növbəti dəfə biabır edən Ermənistanın siyasi rəhbərliyi danışığına fikir versin və bizim səbrimizlə oynamasın".**

Prezident İlham Əliyev bu sözləri ilə bir daha təsdiqləyir ki, Azərbaycan torpaqlarında ikinci qondarma erməni dövlətinin yaradılmasına heç vaxt imkan verilməyəcək: **"Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsi kimi Azərbaycanın tərkibində həmişə olub, bu gün də onun tərkibindədir, gələcəkdə də olacaq".**

Ölkə başçısının Aprel zəfərləri ilə bağlı səsləndirdiyi fikirlərindən sonra meydana Azərbaycan Respublikasının Dövlət Bayrağı gətirilib.

Tədbirdə Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradov çıxış edərək bildirib ki, aprel zəfərində illərlə yaradılan "məğlubedilməz erməni ordusu" mifi dağıldı və erməni xalqı işğalçılıq siyasətinin iflasa uğradığını dərk etdi. Aprel qələbəsi əsgərlərimizin döyüş ruhunun, ordu ilə xalqın birliyinin təcəssümü oldu. Erməni xalqı artıq bilir ki, Azərbaycan torpaqlarında onlara yer yoxdur. Erməni xalqı, eyni zamanda, dünya ictimaiyyəti də başa düşdü ki, işğal edilmiş ərazilərin hərb yolu ilə azad edilməsi mümkündür. Azərbaycan xalqı, dövləti və ordusu buna tam qadirdir. Rektor bildirdi ki, bu şanlı döyüşdə universitetin iki məzunu qəhrəmancasına döyüşərək şəhidlik zirvəsinə yüksəlib. Bu gün onların valideynləri də buradadır. Biz şəhid Mahir Mirzəyev və Tural Dadaşovun valideynləri qarşısında baş əyirik. Onların əziz xatirələri daim universitetdə yad edilir. Söz veririk ki, şəhidlərimizin qanı yerdə qalmayacaq.

Tədbirdə Müdafiə Nazirliyinin İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin rəisi - Şəxsi Heyət Baş İdarəsi rəisinin müavini, general-mayor Rasim Əliyev çıxış edərək bildirib ki, Azərbaycanın iqtisadi gücü, ordumuzun qüdrəti Ermənistanda hökm sürən rejimin dağılmasına, tam çökməsinə səbəb olacaq təsirlər göstərmək və torpaqlarımızı işğaldan azad edərək ərazi bütövlüyümüzü təmin etmək üçün yetərlidir. Buna hər kəs əmin ola bilər. Aprel döyüşləri Azərbaycan Ordusunun torpaqlarımızı işğaldan hərbi yolla azad etməyə qadir olduğunu bir daha göstərdi. Ali Baş Komandan cənab İlham Əliyev dəfələrlə bəyan edib ki, Azərbaycan bir qarış torpağını da düşmənə güzəştə getməyəcək və Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqlar mövzusu ola bilməz.

Tədbir tanınmış incəsənət ustalarının ifasında geniş konsert proqramı ilə davam etdirilib.

# Çikaqoda birinci İllinoys-Azərbaycan kənd təsərrüfatı forumu keçirilib



Aprelin 4-də ABŞ-ın Çikaqo şəhərinin tanınmış məkanlarından biri olan "Dreyk" otelində birinci İllinoys-Azərbaycan kənd təsərrüfatı forumu keçirilib.

AZƏRTAC xəbər verir ki, forumun məqsədi həm Azərbaycanda, həm də ABŞ-ın nəhəng kənd təsərrüfatı ştatlarından olan İllinoys ştatında fəaliyyət göstərən kənd təsərrüfatı üzrə sahibkarları bir araya gətirməklə tərəflər arasında aqrar sahədə əməkdaşlığın yaradılması, məhsuldarlığın artırılması ilə bağlı ABŞ istehsalı olan texnologiyalarla, eləcə də kənd təsərrüfatının müxtəlif sahələrində tətbiq edilən yeni metodlarla tanışlıqdır.







Forum ABŞ-Azərbaycan Ticarət Palatası və İllinoys Ticarət palatasının birgə təşkilatçılığı, Azərbaycanın Kənd Təsərrüfatı Nazirliyi, ölkəmizin ABŞ-dakı səfirliyi, Birləşmiş Ştatların Bakıdakı səfirliyi, ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi (USAID), İllinoys ştatının Kənd Təsərrüfatı Departamenti, Azərbaycanda Amerika Ticarət Palatası (AmCham), Avropa Yenidənqurma və İnkişaf Bankı, CNFA, "Global Chamber", "John Deere" və "Dentons" şirkətlərinin tərəfdaşlığı ilə təşkil olunub.

Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC) forumun əsas informasiya təminatçısıdır.

Tədbirdə ölkəmizin kənd təsərrüfatı naziri İnam Kərimovun rəhbərlik etdiyi və aparıcı kənd təsərrüfatı şirkətlərinin və aqrar tədqiqat qurumlarının daxil olduğu geniş tərkibli nümayəndə heyəti, ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi və ABŞ-ın aparıcı kənd təsərrüfatı şirkətləri, beynəlxalq maliyyə institutları və müvafiq akademik dairələrin təmsilçiləri iştirak ediblər.

ABŞ-Azərbaycan Ticarət Palatasının icraçı direktoru Natiq Baxışov qonaqları salamlayıb, tədbirin təşkil edilməsində verdikləri dəstəyə görə forumun tərəfdaşlarına təşəkkürünü bildirib.

Sonra ABŞ-Azərbaycan Ticarət Palatasının sədri Reza Vəziri iki ölkə arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq üçün gözəl imkanlar olduğunu vurğulayaraq, forumun işgüzar dairələr arasında əlaqələrin inkişafına təkan verəcəyinə əminliyini ifadə edib.

İllinoys Ticarət Palatasının icraçı direktoru Laura Orteqa ştatın iqtisadi imkanlarından və kənd təsərrüfatı sahəsində müqayisəli üstünlüklərindən danışıb, azərbaycanlı sahibkarları kənd təsərrüfatı sahəsində İllinoysla sıx əməkdaşlığa dəvət edib.

Azərbaycanın kənd təsərrüfatı naziri İnam Kərimov ölkəmizdə iqtisadiyyatın şaxələndirilməsi istiqamətində həyata keçirilən islahatlardan danışaraq, kənd təsərrüfatının qeyri-neft sektorunun inkişafında böyük rola malik olduğunu qeyd edib. Nazir aqrar sahənin inkişafının ölkəmizdə prioritet olduğunu diqqətə çatdırıb. Kənd təsərrüfatının inkişafına dair dövlət dəstəyindən, bu istiqamətdə aparılan islahatlardan söz açan İnam Kərimov kənd təsərrüfatının bütün sahələrinə Azərbaycan Respublikasının Prezidenti tərəfindən xüsusi diqqət və qayğı göstərildiyini vurğulayıb.

Ölkəmizdə kənd təsərrüfatının inkişafı üzrə Strateji Yol Xəritəsinin qəbul olunduğunu bildirən nazir aqrar sahənin inkişafının qlobal Dayanıqlı İnkişaf Məqsədlərinə uyğun olduğunu vurğulayıb. O, ABŞ tərəfi ilə kənd təsərrüfatı sahəsində əməkdaşlığın böyük potensiala malik olduğunu bildirərək, forumun iştirak edən şirkətlər üçün əlavə imkanlar yaradacağını deyib.

ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin administratorunun müavini Brok Bierman USAID-in Azərbaycandakı fəaliyyətindən danışaraq, Azərbaycanda Kənd Təsərrüfatına Dəstək Layihəsindən söz açıb. USAID-in kənd təsərrüfatı sahəsində yeni tərəfdaşlıqlar üçün Azərbaycan hökuməti və işgüzar dairələrlə əməkdaşlığa hazır olduqlarını bildirib.

Azərbaycanın ABŞ-dakı səfiri Elin Süleymanov ölkəmizin bir sıra kənd təsərrüfatı məhsulları istehsalı üzrə dünyada aparıcı rola malik olduğunu bildirərək, aqrar sahədə xarici sərmayələr üçün yaradılmış əlverişli şərtlərdən bəhs edib və ABŞ şirkətlərini ölkəmizin bu sektoruna sərmayə yatırmağa dəvət edib. O, Azərbaycanın həyata keçirdiyi davamlı iqtisadi islahatlar prosesinin dünyanın mötəbər hesabatları, o cümlədən Dünya Bankının "Doing Business Report", habelə İqtisadi Azadlıq İndeksinin son illik reytinqlərində öz əksini tapdığını vurğulayıb.

Forum çərçivəsində ABŞ və Azərbaycan arasında kənd təsərrüfatı sahəsində qarşılıqlı ticarət və investisiyaların təşviqi perspektivləri, mövcud çətinliklər müzakirə edilib. Beynəlxalq ticarət mütəxəssisi və Vaşinqtonda fəaliyyət göstərən "WCC International" şirkətinin rəhbəri Elşən Baloğlanovun moderatorluğu ilə keçən paneldə çıxış edən Dünya Bankının kənd təsərrüfatı üzrə baş iqtisadçısı Bexzod Şəmsiyev, ABŞ-Azərbaycan Ticarət Palatasının icraçı direktoru Natəvan Məmmədova, ABŞ-ın "EXİM" Bankının icraçı direktorunun müavini Yan Blaho, USAID-in Azərbaycanda kənd təsərrüfatı üzrə mütəxəssisi Corc Melton potensial imkanlar barədə danışıblar.

Növbəti sessiyalar çərçivəsində kənd təsərrüfatı sahəsində təhsil və bacarıqların artırılması, texniki peşə təhsilinin əhəmiyyəti, habelə aqrobiznes sahəsində innovativ texnologiyaların və metodların tətbiqi, kənd təsərrüfatının dayanıqlı inkişaf problemləri, yeni suvarma üsulları və bu sahədə mövcud texnologiyalar barədə geniş müzakirələr aparılıb. ABŞ-ın aparıcı kənd təsərrüfatı şirkətləri - "John Deer", "Lindsay Corporation" və digərləri öz qabaqcıl təcrübələri və texnologiyaları barədə təqdimatlar edib, Azərbaycanla əməkdaşlığı davam etdirmək niyyətini bildiriblər.

Forum çərçivəsində kənd təsərrüfatı naziri İnam Kərimov USAID-in administratorunun müavini Brok Bierman və kənd təsərrüfatı inkişafı sahəsində ixtisaslaşmış CNFA təşkilatının rəhbərliyi ilə ikitərəfli görüşlər keçirib. Görüşlər zamanı ölkəmizin kənd təsərrüfatı sahəsində prioritetləri, mövcud durum və qarşıda duran strateji hədəflər barədə məlumat verilib, əməkdaşlıq perspektivləri müzakirə olunub.

Forumun sonunda iştirakçılar üçün ziyafət mərasimi təşkil edilib.

# ADU-nun rektoru Kamal Abdulla DTX-nin yubiley medalı ilə təltif olunub



Azərbaycan Dillər Universitetinin (ADU) rektoru, akademik Kamal Abdulla Dövlət Təhlükəsizlik Xidmətinin və Xarici Kəşfiyyat Xidmətinin yaranmasının 100 illiyi münasibətilə təltif olunub. Bu barədə universitetin mətbuat xidmətindən bildirilib. Təqdimat mərasimində çıxış edən xidmətin səlahiyyətli şəxsi bildirib ki, yubiley medalının akademik Kamal Abdullaya təqdim olunması Dövlət Təhlükəsizlik Xidmətinin Azərbaycan Dillər Universitetinin kollektivinə olan böyük etimadının bariz nümunəsidir.

ADU-nun rektoru xidmətin uğurlu fəaliyyətindən danışıb. O bildirib ki, dövlətçiliyimizin, milli maraqlarımızın qorunması istiqamətində xidmət əməkdaşlarının fədakar əməyi hər zaman yüksək qiymətləndirilib: **"Məni belə bir şərəfli ada layiq gördüyünüzə görə təşəkkür edirəm. Bilirəm ki, Dövlət Təhlükəsizlik Xidmətinin əməkdaşları dövlətçiliyimizin keşiyində çox böyük mətanətlə dururlar. Azərbaycan Dillər Universitetinin əməkdaşları da tələbə, vətəndaş yetişdirməklə, cəmiyyətlə yüksək səviyyədə ünsiyyət qurmaqla dövlətçiliyimizə xidmət edirlər. Bu medal təkcə mənə yox, bütün kollektivimizə verilən təltifdir. Dövlət Təhlükəsizlik Xidmətinin 100 illiyi münasibəti ilə təbrik məktubumuzu, xoş arzularımızı xidmətin rəisi, general-polkovnik Mədət Quliyevə ünvanlamışıq. Bu əlamətdar yubiley münasibəti ilə xidmətin bütün kollektivini bir daha təbrik edirəm".**

MÜŞFİQƏ

# Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı dövlətimizin mövqeyi qəti və birmənalıdır



***Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini, YAP-ın Beynəlxalq əlaqələr şöbəsinin müdiri Sevinc Fətəliyeva www.yap.org.az saytına müsahibə verib:***

**- Sevinc xanım, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı mövcud durumu necə dəyərləndirirsiniz?**

- Bilirsiniz ki, Azərbaycanın xarici siyasətinin əsas prioriteti Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin ərazi bütövlüyü çərçivəsində həllinə nail olmaqdan ibarətdir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən qətiyyətli siyasət nəticəsində diplomatik cəbhədə əhəmiyyətli uğurlar əldə edilib. Azərbaycan tərəfi münaqişənin həlli ilə bağlı bütün görüşlərdə və danışıqlarda siyasi iradə nümayiş etdirərək bu problemin nizamlanması yolunda konstruktiv mövqe sərgiləyib. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ölkəmizin qarşıya qoyduğu ən prioritet məsələdir. Ermənistanın hərbi təcavüzü səbəbindən meydana çıxan bu münaqişə nəticəsində Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağ və yeddi ətraf rayon işğal edilib, bir milyondan artıq soydaşımız qaçqın və məcburi köçkün həyatı yaşamağa məcbur olub. Azərbaycan münaqişənin beynəlxalq hüquq normaları əsasında, ədalətli həllinə nail olmaq məqsədilə genişmiqyaslı iş aparır, beynəlxalq təşkilatlarla əməkdaşlığı genişləndirir. Müəyyən müddətdir ki, davam edən danışıqlar prosesində ölkəmiz nəinki öz həqiqətlərini dünyaya çatdıra bilib, həm də siyasi, diplomatik, iqtisadi, hərbi sahələrdə işğalçı Ermənistan üzərində aşkar üstünlüyə nail olub. Digər sahələrdə olduğu kimi, ölkənin ərazi bütövlüyü məsələsində də respublika rəhbərliyinin qətiyyətli və birmənalı mövqe sərgiləməsi Ermənistan və bəzi xarici ermənipərəst qüvvələrin müxtəlif qərəzli niyyətlərini dəfələrlə iflasa uğradıb.

Ermənistanda hakimiyyət dəyişikliyindən sonra Azərbaycan yeni hakimiyyətdən düzgün qərarlar gözləyir. Ötən bir il ərzində yeni hakimiyyət münaqişənin həlli ilə bağlı ziddiyyətli bəyanatlar verib, danışıqların formatının dəyişdirilməsi haqda fikirlər səsləndirib. Azərbaycan tərəfi isə prinsipial mövqeyini Nikol Paşinyan hakimiyyətinin diqqətinə çatdırıb. Martın 29-da Avstriyanın paytaxtı Vyanada Azərbaycan Prezidenti və Ermənistan baş naziri arasında görüşün keçirilməsi bir daha təsdiq edir ki, danışıqların formatı dəyişməz qalır. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqlar yalnız Azərbaycan Respublikası və Ermənistan arasında aparılır. Ermənistan rəhbərliyi bundan öncə danışıqların formatının dəyişdirilməsinə dair məntiqsiz və absurd fikirlər səsləndirərək manipulyasiyaya yol verdi. Amma Azərbaycan buna imkan vermədi, işğalçı ölkə rəhbərliyinin danışıqları pozmaq və məsuliyyətdən yayınmaq cəhdləri baş tutmadı.

Vyanada Azərbaycan Prezidenti və Ermənistanın baş naziri arasında iki saatdan artıq təkbətək görüş keçirildi, daha sonra görüşə həmsədrlər və ölkələrin xarici işlər nazirləri də qatıldılar, nəticədə üç saatdan artıq müddətdə danışıqlar aparıldı. Bu görüşün keçirilməsi və danışıqların formatının dəyişməz qalması Azərbaycanın növbəti diplomatik uğurudur. Azərbaycanın mövqeyi qəti və birmənalıdır: Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalı, Ermənistan qoşunları ölkəmizin işğal olunmuş ərazilərindən çıxarılmalı və Azərbaycanın ərazi bütövlüyü və suverenliyi təmin olunmalıdır.

**- Aprel döyüşlərindən 3 il ötür. Bu döyüşlər Azərbaycan Ordusunun gücünü göstərdi. Sizcə, erməni tərəfi hansı nəticələr çıxarmalıdır?**

- Ermənistan tərəfi 2016-cı ilin 1-5 aprel tarixində cəbhə xəttində növbəti təxribat törədərək vəziyyəti gərginləşdirməklə Azərbaycanın diplomatik uğurlarını və beynəlxalq aləmin münaqişənin ədalətli həlli ilə bağlı qəti mövqeyini neytrallaşdırmağa çalışıb. Lakin Azərbaycan Ordusunun düşmənin təxribatlarının qarşısını alması, nəticədə Ermənistan silahlı qüvvələrinin 200-ə yaxın hərbçi, çoxsaylı texnika itirməsi, həmçinin 2000 hektara yaxın ərazinin, o cümlədən Lələtəpə və Talış yüksəkliklərinin geri qaytarılması, silahlı qüvvələrimizin on minlərlə hektar əraziyə nəzarət etmək imkanı qazanması Ermənistanın niyyətlərini puç edib. Aprel döyüşləri həm də onu göstərdi ki, Azərbaycan işğal faktı, mövcud status-kvo ilə barışmaq, Ermənistanın təxribatlarına dözmək niyyətində deyil və düşmənə layiqli cavab vermək əzmi və iqtidarındadır. Bütövlükdə, Aprel döyüşləri zamanı Azərbaycan Ordusu Ermənistanın təxribatçı hərəkətlərinin qarşısını layiqincə almaqla yanaşı, həm də qarşıya qoyulan hədəflərə nail oldu. Digər tərəfdən, Aprel döyüşləri Azərbaycan Ordusunun gücünü, hər an torpaqları azad etmək iqtidarında olduğunu, habelə Azərbaycan əsgərinin vətənpərvər və qəhrəman olduğunu nümayiş etdirdi. Onu da vurğulamaq lazımdır ki, Azərbaycan Ordusunun şanlı aprel qələbəsi həm də beynəlxalq ictimaiyyət tərəfindən münaqişənin həlli məsələsinə adekvat yanaşmanın ortaya qoyulmasını şərtləndirib. Xüsusi olaraq qeyd etmək lazımdır ki, Aprel döyüşlərindən sonra ayrı-ayrı dövlətlər, beynəlxalq təşkilatların nümayəndələri, rəsmilər Ermənistanın təxribatçı hərəkətlərinə son qoyulmasının və Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normalarına əsasən həllinin zəruriliyini bəyan etdilər. Bu isə onu deməyə əsas verir ki, dünya ictimaiyyəti Ermənistanın qeyri-konstruktiv mövqeyini kəskin qınayır. Bundan başqa, ATƏT-in Minsk qrupu da mövcud status-kvonun davam edə bilməyəcəyi qənaətindədir və bu fikir açıq şəkildə ifadə olunub. Ümumiyyətlə, 2016-cı ilin aprelindən sonra beynəlxalq ictimaiyyət bir daha anladı ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi regional təhlükəsizliyə ciddi təhdidlər yaradan destruktiv problemdir. Başqa sözlə, Ermənistanın Azərbaycan torpaqlarının 20 faizini işğal etməsi nəticəsində yaranmış münaqişə ölkəmizin ərazi bütövlüyünə qarşı törədilmiş qəsdin və təcavüzkar siyasətin əyani nümunəsi olmaqla yanaşı, həm də regional və qlobal təhlükəsizlik sistemi üçün ciddi təhdiddir. Ona görə də bu problemin həlli beynəlxalq təhlükəsizliyin diktə etdiyi zəruri amildir və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nə qədər ki ədalətli şəkildə həll edilməyib, regionda bütövlükdə sülh və sabitlikdən bəhs etməyə dəyməz. Çünki ərazi iddialarının, təcavüz faktının və separatizmin mövcud olduğu məkan və şəraitdə qarşılıqlı maraqlara söykənən əməkdaşlıq niyyətlərini istənilən səviyyədə reallaşdırmaq qeyri-mümkündür. Aprel döyüşlərindən sonra yaranmış vəziyyətin fonunda hazırkı şərait belədir ki, artıq Azərbaycan məğlub, Ermənistan isə qalib tərəf kimi qəbul olunmur, ATƏT-in Minsk qrupu isə münaqişənin həll edilməsinin zərurət olduğunu diqqətə çatdırır. Yaranmış yeni hərbi-siyasi şərait Dağlıq Qarabağ münaqişəsinin tezliklə həllini zəruri edir.

**- Bu yaxınlarda Ermənistanın müdafiə naziri David Tonoyan münaqişə ilə bağlı təxribat xarakterli bəyanat verdi. Buna münasibətiniz necədir?**

- Əlbəttə ki, David Tonoyanın fikirləri qəbuledilməzdir və beynəlxalq birlik Ermənistanın müdafiə nazirinin bu mövqeyinə münasibət bildirməlidir. D.Tonoyan açıq şəkildə öz dövlətinin işğalçı olduğunu etiraf etmiş olur. Erməni nazirin "sülh üçün ərazi" formulunun "yeni müharibə - yeni ərazilər" formuluna çevrilə biləcəyi fikrini başqa cür qiymətləndirmək mümkün deyil.

Bilirsiniz ki, Azərbaycanın Xarici İşlər Nazirliyi də məsələ ilə bağlı mövqeyini ifadə edib. Ermənistan anlamalıdır ki, hazırda Azərbaycan Silahlı Qüvvələri dünyanın ən güclü orduları sırasında yer alır və beynəlxalq hüququn ona verdiyi özünümüdafiə haqqı ilə Azərbaycan işğal edilmiş torpaqlarını qısa müddətdə azad etmək iqtidarındadır.

Azərbaycan Ermənistan kimi digər dövlətlərin ərazilərinə iddialarla çıxış etmir və ərazilər zəbt etmək fikrində deyil. Azərbaycanın tələbi BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun olaraq, onun beynəlxalq tanınmış ərazilərindən işğalçı Ermənistan qüvvələrinin dərhal, tam və qeyd-şərtsiz çıxmasıdır. Bütün bu illər ərzində beynəlxalq ictimaiyyətin dəstəyi ilə aparılan səylərimiz məhz bu məqsədə yönəlib. Əks təqdirdə, Azərbaycan beynəlxalq hüququn müvafiq norma və prinsiplərini, o cümlədən BMT Nizamnaməsini rəhbər tutaraq öz torpaqlarını bütün digər vasitələrlə erməni işğalından azad etməyə hazırdır. Bundan ən yaxşı xəbərdar olan elə məhz Ermənistandır.

Əgər erməni tərəfi yenə torpaqlarımızı işğal etməyə cəhd edərsə, layiqli cavabını alacaq. 2016-cı ilin Aprel döyüşləri bu reallığı təsdiqləyir. Məlumdur ki, Aprel döyüşləri zamanı ordumuz düşmənin müdafiə xəttini cəmi 18 dəqiqəyə yardı. Bu isə ordumuzun gücünün əyani sübutu, Ermənistanın isə öz ordusu haqda yaratdığı mifin iflası oldu. Ona görə də, erməni ordusu Azərbaycan Ordusunun qarşısında duruş gətirə bilməz.

Digər tərəfdən, Ermənistanın hakimiyyət nümayəndələrinin münaqişənin həlli ilə bağlı fərqli, ziddiyyətli fikirlər səsləndirməsi işğalçı ölkənin yeni iqtidarının qeyri-peşəkarlığını göstərir. Eyni zamanda, bu fakt hakimiyyət daxilində siyasi qarşıdurmanın da göstəricisi ola bilər.

# BSU-da "Dualarda yaşayan şəhidlər" adlı mərasim keçirilib







Bakı Slavyan Universitetində (BSU) Gənc Yaradıcılar Klubunun təşkilatçılığı ilə Aprel döyüşlərinin üçüncü ildönümünə həsr olunmuş "Dualarda yaşayan şəhidlər" adlı anım mərasimi keçirilib. Universitetin mətbuat xidmətindən verilən məlumata görə, mərasimdən öncə BSU-nun müəllim heyəti və Tələbə Gənclər Təşkilatının üzvləri II Fəxri xiyabanda Aprel şəhidlərinin məzarlarını ziyarət ediblər. Anım tədbirinin əvvəlində şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Mərasimi giriş sözü ilə açan BSU-nun rektoru, professor Nurlana Əliyeva bildirib ki, 2016-cı il aprelin 1-dən 2-nə keçən gecə qəhrəman əsgər və zabitlərimiz erməni təxribatına layiqli cavab verərək, uğurlu əkshücum əməliyyatı keçirib, düşmənə sarsıdıcı zərbələr vurublar: **"Aprel döyüşlərindən sonra Azərbaycanın işğal altında olan torpaqlarının bir hissəsi azad edildi. Bizim əsgərlərimiz, zabitlərimiz sübut etdilər ki, Vətən uğrunda, torpaq uğrunda ölümə getməyə hər an hazırdırlar. Aprel döyüşləri bizim şanlı qələbəmizdir. Azərbaycan Ordusu Ermənistanın uzun illər öz ordusu haqqında uydurduğu miflərin yalan olduğunu bir daha sübut etdi".**

Rektor həmin vaxt şəhid olanların, o cümlədən 2016-cı il aprel ayının 4-də Füzuli rayonunda gedən döyüşlərdə qəhrəmancasına həlak olan BSU-nun məzunu Vüqar Süleymanovun xatirəsini yad edib, şəhidlərə Allahdan rəhmət diləyib.

N.Əliyeva həmçinin dövlət tərəfindən ordumuz üçün yaradılan şəraitdən söz açaraq bildirib ki, hərbi sıralarımızda nizam-intizam hökm sürür, ordumuzun maddi-texniki təminatı ən yüksək səviyyədədir. Rektor YAP Qadınlar Şurasının sədri kimi Aprel döyüşlərindən sonra cəbhə xəttində əsgərlərlə görüşündən də söz açıb, Azərbaycan əsgəri üçün yaradılan şəraiti qürur hissi ilə ifadə edib. O qeyd edib ki, ordumuzun ən müasir, yüksək dağıdıcı qüvvəyə və dəqiqliyə malik olan silahlarla, hərbi texnika ilə təmin edilməsi Prezident İlham Əliyevin Azərbaycan Ordusuna göstərdiyi diqqət və qayğının bariz nümunəsidir. N.Əliyeva bu gün ölkəmizdə hökm sürən sabitliyin, əmin-amanlığın əvəzsiz bir nemət olduğunu vurğulayıb, gəncləri Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birliyə səsləyib. O, gənclərə yad ideologiyalara, yabancı düşüncələrə uymamağı tövsiyə edib.

Tədbirdə Prezident İlham Əliyevin Aprel döyüşləri ilə bağlı nitqi dinlənilib. Sonra Aprel şəhidlərinə həsr olunan videoçarx nümayiş etdirilib.

Qarabağ müharibəsi veteranı, BSU-nun azərbaycanşünaslıq elmi-tədqiqat laboratoriyasının müdiri, dosent Sadir Məmmədov Aprel döyüşləri zamanı Azərbaycan ordusunun düşmənə sarsıdıcı zərbələr endirməsindən, qəhrəman oğullarımızın döyüşlərdə göstərdiyi şücaətdən danışıb. Bununla yanaşı, Aprel döyüşlərinin canlı iştirakçısı, həmin döyüşlərdə cəbhə xəttində hərbi xidmətdə olan Nizaməddin Babazadə döyüş təəssüratlarını iştirakçılarla bölüşüb: **"Döyüşlər zamanı təmas xəttinə yaxın yerləşən kəndləri təhlükəsizlik üçün boşaltmaq məqsədilə gedərkən gördüm ki, vətəndaşlarımızda nə qədər milli ruh var. Bu qorxmaz insanlar atəş altında belə öz doğma evlərini, kəndlərini tərk etməmişdilər".**

Sonra iştirakçılar BSU YAP Gənclər Birliyinin Aprel döyüşləri haqqında 13 dildə hazırladığı videoçarxı izləyiblər.

Tədbir Gənc Yaradıcılar Klubunun tərcümə fakültəsi üzrə fəal tələbələrinin vətənpərvərliklə bağlı bədii kompozisiyasının təqdimatı ilə başa çatıb.

**MÜŞFİQƏ**

# YAP Gənclər Birliyi və "Loqos" Psixoloji və Nitq İnkişaf Mərkəzi arasında əməkdaşlıq haqqında Memorandum imzalanıb





Aprelin 5-də Yeni Azərbaycan Partiyasının (YAP) Gənclər Birliyi və "Loqos" Psixoloji və Nitq İnkişaf Mərkəzi arasında əməkdaşlıq haqqında Memorandum imzalanıb. Bununla əlaqədar keçirilən tədbirdə YAP Gənclər Birliyinin sədri Seymur Orucov bildirib ki, Azərbaycanda uğurlu sosial siyasət həyata keçirilir. Onun sözlərinə görə, Prezident İlham Əliyevin siyasətində vətəndaşların sosial rifahı faktoru mühüm yer tutur. **"Yeni Azərbaycan Partiyasının fəaliyyətində də sosial məsələlər daim diqqət mərkəzindədir. Partiyanın Gənclər Birliyi olaraq biz də sosialyönümlü layihələr həyata keçiririk. Bu baxımdan, "Loqos" Psixoloji və Nitq İnkişaf Mərkəzi ilə əməkdaşlıq haqqında Memorandum imzalanması əhəmiyyətlidir",** - deyə S.Orucov vurğulayıb.

YAP Gənclər Birliyinin sədri deyib ki, "Loqos" Psixoloji və Nitq İnkişaf Mərkəzinin fəaliyyəti genişdir və bu mərkəzin regionlarda filialları fəaliyyət göstərir. S.Orucov gələcəkdə YAP Gənclər Birliyi və "Loqos" Psixoloji və Nitq İnkişaf Mərkəzinin birgə sosial layihələr keçirəcəyini diqqətə çatdırıb.

Çıxış edən "Loqos" Psixoloji və Nitq İnkişaf Mərkəzinin rəhbəri Təranə Məmmədova rəhbərlik etdiyi təşkilatın fəaliyyəti haqqında məlumat verib. Onun sözlərinə görə, "Loqos" fəaliyyət göstərdiyi müddət ərzində bir çox uğurlara imza atıb. Mərkəzdə 300 nəfərin çalışdığını deyən T.Məmmədova "Loqos" Psixoloji və Nitq İnkişaf Mərkəzində YAP ərazi ilk partiya təşkilatının da fəaliyyət göstərdiyini diqqətə çatdırıb. Əməkdaşlıq haqqında memorandumun əhəmiyyətindən danışan T.Məmmədova YAP Gənclər Birliyi ilə birgə sosial layihələrin həyata keçirilməsinə maraqlı olduqlarını deyib.

Sonra YAP Gənclər Birliyinin sədri Seymur Orucov və "Loqos" Psixoloji və Nitq İnkişaf Mərkəzinin rəhbəri Təranə Məmmədova əməkdaşlıq haqqında Memorandum imzalayıblar.

# AzMİU-da Aprel zəfərinin 3-cü ildönümü qeyd olunub





Azərbaycan Memarlıq və İnşaat Universitetində (AzMİU) Aprel döyüşlərinin üçüncü ildönümü ilə əlaqədar tədbir keçirilib.

AzMİU-dan AZƏRTAC-a bildirilib ki, tədbirdə əvvəlcə Vətən uğrunda canını fəda etmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin Aprel döyüşləri ilə bağlı tarixi çıxışı və Milli Ordumuzun qüdrətini əks etdirən videoçarx nümayiş olunub.

Tədbirdə Aprel döyüşlərinin iştirakçısı, baş leytenant Əhliyyət Mehdiyev 2016-cı ilin aprel ayında cəbhə xəttində baş vermiş hadisələri təhlil edib, Aprel zəfərini Azərbaycan əsgərinin qəhrəmanlıq salnaməsi adlandırıb. O vurğulayıb ki, həmin hadisələr əsgərlərimizin döyüş və mənəvi-psixoloji hazırlığının, qələbə əzminin yüksək olduğunu nümayiş etdirdi. Bu döyüşlər dövlətin və ordunun gücünü, xalqın birliyini, həmrəyliyini, vətənpərvərliyini, Azərbaycanın heç vaxt işğalla barışmayacağını, nəyin bahasına olursa-olsun, ərazi bütövlüyünü bərpa etmək əzmini bir daha göstərdi. Ə.Mehdiyev gəncləri xalqımızın qəhrəman oğullarından nümunə götürərək Vətən uğrunda canlarından keçməyə hazır olmağa çağırıb, torpaqlarımızın bir qarışının belə ermənilərdə qalmaması üçün döyüş ruhunu qorumağa səsləyib.

Aprel döyüşlərinin iştirakçısı, qazi Hikmət Məmmədov şəhidlərin xatirəsinin daim əziz tutulduğunu və gənc nəslin vətənpərvərlik ruhunda tərbiyələnməsində hər bir şəhidin şücaətinin nümunə olduğunu diqqətə çatdırıb. O, gənclərə şəhid ailələrinə, onların doğmalarına həssaslıqla yanaşmağı, daim onlara mənəvi dəstək göstərməyi tövsiyə edib, onları sosial şəbəkələrdə fəallıq göstərərək qəhrəmanlarımızı xalqa tanıtmağa çağırıb. Çıxışının sonunda döyüşlərdə yaralanmasına baxmayaraq, yenə də sırada olduğunu qeyd edən zabit vurğulayıb ki, işğal altında olan torpaqlarımızın azad edilməsi və bayrağımızın həmin ərazilərdə dalğalanması üçün döyüşlərə həmişə hazırdır.

AzMİU-nun rektoru, professor Gülçöhrə Məmmədova qazilərə təşəkkürünü bildirib, tədbirin keçirilməsində əsas məqsədin yeniyetmə və gənclərdə vətənpərvərlik ruhunun yüksəldilməsinə töhfə vermək olduğunu diqqətə çatdırıb. **"Bu tədbir, eləcə də qazilərimizin, tələbələrimizin çıxışları göstərir ki, gənclərimiz Azərbaycanın müasir hərb tarixinin zəfər səhifəsi sayılan Aprel döyüşlərində qazanılan qələbələrdən qürur hissi keçirir, bu döyüşlərdə həlak olmuş əsgərlərimizin qəhrəmanlığı ilə fəxr edirlər",** - deyə rektor bildirib.

Tədbirdə AzMİU-nun tələbələri maraqlı kompozisiyalar nümayiş etdiriblər.

# Bacarıqlı pedaqoq, fəal vətəndaş, yorulmaz tədqiqatçı: Professor Nizami Xudiyev



Bəzən elmdə, ictimai-publisistik mühitdə ciddi imzası olan, habelə cəmiyyətdə özünəməxsus yolu, mövqeyi ilə seçilən, şəxsən tanıdığımız və tanımadığımız adamlar haqqında söz demək ehtiyacı duyursan; lakin hansı səbəblərdənsə bu cür yazılar ya gecikir, ya da vaxtında yazılmadığından daim səninçün narahatçılıq yaradır. Bu cür yazıları yazmaqda bəzən gecikirik, bəzən də hansısa bir münasibət (məsələn, yubiley) gözləyirik.

Professor Nizami Xudiyevin bütün fəaliyyəti boyu yazdıqları (həm elmi, həm də ictimai publisistik) əslində onun yaşadığı şərəfli ömrün yalnız kiçik bir hissəsidir və biz də burada həyatda və fəaliyyətində son dərəcə səmimi olan ziyalımızın, alimimizin əsərləri üzərində, demək olar ki, dayanmadıq. İndiyədək onun 60-dək irili-xırdalı əsəri, 300-dək məqaləsi olduğunu bilirik. Bizə yalnız onu demək qalır ki, Nizami müəllimin yaradıcılığı çağdaş və gələcək oxucular üçün dəyərli bir mənbədir. Yaxşı haldır ki, bu elmi-mənəvi sərvətin sahibi bizim, demək olar ki, hər həftə qarşılaşdığımız, iş yerində və tədbirlərdə rastlaşdığımız, özünə və yaradıcılığına dərin hörmət bəslədiyimiz həmkarımızdır. Onun elmi-pedaqoji fəaliyyəti kimi xarakteri də safdır, təmizdir.

Nizami müəllim hər şeydən öncə müəllimdir, bu, onun bioqrafiyasının ümdə prioritetidir. Bu sahə ona son dərəcə doğma olduğu kimi, həm də təbiətinə uyğun gələn bir sahədir. N.Xudiyev həm də ziyalı vətəndaşdır.

Şübhəsiz, onun elmi-pedaqoji fəaliyyətinin çoxşaxəli istiqamətlərinin siyahısını uzatmaq, bu yaradıcılıq istiqamətlərinin hər birinin ayrıntıları üzərində geniş dayanmaq, araşdırmalarının məzmununa nəzər yetirmək də məqsədəuyğun olardı. Belə ki, professor Nizami Xudiyevin özü ilə sözü, ziyalılığı ilə kimliyi tam bir vəhdətdədir. Onun pedaqoji elmi fəaliyyətini səciyyələndirən amillərdən biri məhz budur; bəzi hallarda ziyalılarda bu vəhdətin qabarıq nəzərə çarpmadığının az şahidi olmamışıq. O, həyatda olduğu kimi, elmi fəaliyyətində, publisistik və pedaqoji elmi yaradıcılığında da eyni dərəcədə səmimidir, təvazökardır.

Birincisi, Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor kimi yüksək elmi dərəcə və adı daşıyan müəllimimiz layiqli ziyalıların yetirməsidir. Bu zaman üç nəfəri xüsusi qeyd etməliyəm. Zəif, təmkinli səslə mühazirələr deyən Abbasqulu Məhərrəmov qədim türk dilinin xiridarlarından biri olaraq onun sevimli müəllimi idi. Onun alim kimi püxtələşməsində kafedra müdiri, professor, görkəmli dilçi-alim mərhum Əbdüləzəl Dəmirçizadəni də unutmaq olmaz. İctimai-elmi fəaliyyətində o vaxtlar fakültəmizin dekanı, sonralar rektor işləmiş mərhum akademik Afat Qurbanovun da böyük əməyini minnətdarlıqla yad etmək lazımdır.

İkincisi, geniş yaradıcılıq diapazonuna malik bu tədqiqatçı alim klassiklərimizdən tutmuş müasirlərimizədək, filoloji problemləri əzm və ehtirasla gündəmdə saxlayan, ictimai-elmi fəaliyyətində sıx əməkdaşlıqdan yorulmayan elm sahiblərindəndir.

Üçüncüsü, peşəkar təhsil təşkilatçısı kimi onun fəaliyyəti də Vətənə ləyaqətlə xidmət nümunəsidir və elə ikinci cəhətlə bağlılıq təşkil edən bir xüsusiyyət, müstəqillik dövründə universitetimizdə geniş vüsət almış türkologiya istiqamətinə, milli ədəbi dilin tədrisinə Nizami müəllimin verdiyi töhfədir. O, bu fənni tədris etməklə bərabər, həm də kurs üzrə proqram və dərs vəsaitlərinin yazılmasında yaxından iştirak edir.

Dördüncüsü, bir alim və insan kimi Nizami müəllimi səciyyələndirən ən ümdə cəhətlərdən biri də onun öz həmkarlarının, xüsusilə magistrant və doktorantların elmi, elmi-pedaqoji fəaliyyətinə biganəlikdən uzaq olması, elmi rəhbər kimi elmi diskussiya və müzakirələrə xeyirxahlığa söykənən meyilliliyidir. Həm alim, həm də təhsil təşkilatçısı kimi xeyirxahlığı ilə seçilən ziyalıdır.

Beşincisi, həm Milli Məclisin deputatı, həm universitet rektoru, həm Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü kimi çalışdığı bütün işlərdə Ulu Öndər və Onun layiqli davamçısı olaraq Prezident İlham Əliyevin müstəqil dövlət quruculuğu ilə bağlı tarixi fəaliyyətlərini daim təbliğ və təqdir etməsi sahəsində ictimai fəallığı da xüsusi qeyd edilməlidir.

Həyat Nizami Xudiyevi çox sınaqlara çəkib... Amma o, bütün bunlara sinə gərib, ürəyində kin, qəzəb gəzdirməyib, müəllim, ziyalı, pedaqoq adlarını həmişə uca tutub.

Onun uzunillik elmi-pedaqoji fəaliyyətində diqqəti çəkən mühüm amillərdən biri də müəllifin tədqiqatlarında özünü göstərən tarixi-xronoloji ardıcıllığa bir pedaqoq kimi əməl etməsidir. Belə ki, kitabda müəllif ədəbi dilin özünəməxsus etnogenezisində özünü göstərən, mahiyyəti, məzmunu, məqsədi təhlil etməklə kifayətlənmir, eyni zamanda onun varislik ənənələrinin qorunub saxlanıldığını ədəbiyyatın bu dövrlərdə yaradıcı surətdə necə davam etdirildiyini elmi cəhətdən sübut edir. Bütün bunlar Nizami Xudiyevin bir peşəkar dilçi-tədqiqatçı olmaqla, öz soy-kökünə bağlılığının, ona ehtiramının nəticəsidir. Başqa türksoylu xalqların etnik tarixinə olan məhəbbət də məhz bundan qaynaqlanır. Çünki Nizami müəllim öz soy-kökünə, mənəvi dəyərlərinə bağlı və onu sevən bir mütəxəssis - vətəndaşdır. Deyirlər, öz qədrini bilməyən başqasının qədrini heç bilməz. Nizami müəllimin soy-kökündən gələn səsləri, bir tərəfdən sözlərə, cümlələrə, əsərlərə çevirərək gənc nəslə çatdırmaq istəyi öz millətinə sevgi və etiramı ilə bağlıdırsa, digər tərəfdən gənclərə türksoylu xalqların bir kökdən olduğunu anlatmaq, onları birliyə səsləmək məqsədindən qaynaqlandığını göstərməkdir. Bu mənada onun aşağıdakı iri həcmli əsərlərini xüsusi qeyd etmək istəyirəm:

** Azərbaycan antroponimlərinin təşəkkülü və inkişafı.- Bakı: Azərnəşr, 2005.- 160 s.*

** Azərbaycan ədəbi dili tarixi: ali məktəblər üçün dərslik.- Bakı: Maarif, 1995.- 496 s.*

** Azərbaycan ədəbi dili tarixi - Ankara, 1997 - 491 s.*

** Azərbaycan ədəbi dilinin sovet dövrü ali məktəblər üçün dərs vəsaiti.- Bakı: Maarif, 1989.- 400, [3] s.*

** Xalqın tarixi haqqı: dilimiz, varlığımız.- Bakı: Azərbaycan, 2003.- 336 s.*

** Zamanın axarı ilə: Məqalələr, rəylər, müsahibələr, xatirələr, çıxışlar, ssenarilər. - Bakı: Azərnəşr, 2004.- 744s.*

İti müşahidə qabiliyyəti, analitik və məntiqi təfəkkürü, faktları ümumiləşdirmə bacarığı, intuisiyası Nizami müəllimi çoxlarından fərqləndirir. Elmdə cəsarətlilik hər bir alim üçün hünər sayılır. O, irəli sürdüyü ideyanın tutumunu da, təsir gücünü də, sabah üçün faydasını da əvvəlcədən görməyi bacaran alimdir. Onun ədəbi-ictimai məqalələri buna sübutdur. Bu baxımdan onun fikirlərindəki orijinallıq hamılıqla bəyənilir...

Bir sözlə, professor Nizami Xudiyev tanınmış ziyalı və fəal vətəndaş olaraq hər cür ehtirama layiqdir.

**Həsən Bayramov**

**Dəmir Yolu və Metropoliten üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin direktoru, Pedaqoji elmlər doktoru**

# Azərbaycan beynəlxalq sülh və təhlükəsizliyin təmin olunmasında NATO ilə sıx əməkdaşlıq edir

*2017-ci ildə istifadəyə verilmiş Bakı-Tbilisi-Qars NATO-nun Əfqanıstanda “Qətiyyətli Dəstək” missiyasının uğuruna mühüm töhfə verir*



Müasir dövrdə beynəlxalq münasibətlər sistemində kardinal dəyişikliklər baş verməkdədir. Yeni geostrateji şəraitdə milli dövlətlərin beynəlxalq münasibətlər sistemində yeri və rolu məhz həyata keçirilən xarici siyasət kursunun səmərəliliyindən asılıdır. Səmərəli və praqmatik xarici siyasət kursu milli maraqları təmin etməklə yanaşı, ölkələrin qarşısında yeni perspektivlərin yaranmasını da şərtləndirir. Müstəqil siyasət həyata keçirən, güclü siyasi iradəyə malik olan dövlətlər beynəlxalq mövqelərini mütəmadi olaraq möhkəmləndirirlər. Bu kontekstdə regional güc mərkəzi olan Azərbaycanın təcrübəsi müsbət və mütərəqqi nümunə kimi çıxış edir.

Vurğulamaq lazımdır ki, Cənubi Qafqaz regionunun lider dövləti olan, bölgədə sabitləşdirici aktor kimi çıxış edən Azərbaycan milli maraqlara əsaslanan, praqmatik və çoxvektorlu xarici siyasət həyata keçirir. Ölkəmiz həm ikitərəfli münasibətlərini, həm də beynəlxalq təşkilatlar çərçivəsində səmərəli və qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrini uğurla davam etdirir. Bununla yanaşı, Azərbaycan regionda, eləcə də beynəlxalq səviyyədə əməkdaşlıq və təhlükəsizliyə mühüm töhfələr verir. Regional güc mərkəzi olan ölkəmizin təşəbbüsü və liderliyi ilə gerçəkləşdirilən enerji, nəqliyyat-kommunikasiya layihələrinin əhəmiyyəti və nəticələri deyilənlərin əyani təsdiqidir. Azərbaycan nəinki yerləşdiyi regionda, həm də bütövlükdə Avrasiya geosiyasi məkanında işbirliyinə, təhlükəsizliyə xidmət edən strateji əhəmiyyətli layihələrin reallaşdırılmasında aparıcı rola malikdir. Təsadüfi deyil ki, açıq dənizə çıxışı olmayan Azərbaycan Avrasiyada nəqliyyat mərkəzinə çevrilib. Bunun qanunauyğun nəticəsidir ki, Azərbaycan hazırda regionda sülhün və təhlükəsizliyin təmin olunması üçün dayaq nöqtəsi, ən perspektivli tərəfdaş hesab edilir. Azərbaycanın xarici siyasətinin digər səciyyəvi xüsusiyyətlərindən biri budur ki, ölkəmiz region ölkələri ilə, işğalçı Ermənistan istisna olmaqla, bütün qonşu dövlətlərlə qarşılıqlı hörmət, bərabərhüquqlu və faydalı əməkdaşlıq prinsiplərinə əsaslanan münasibətlər qurub. Region ölkələri ilə münasibətlərin inkişafı bütövlükdə regionun tərəqqisi, həmçinin bölgədə sülhün və təhlükəsizliyin təmin olunması baxımından strateji əhəmiyyətə malikdir. Eyni zamanda, qlobal əhəmiyyətli transmilli layihələrin təşəbbüskarı və onların reallaşmasında lider mövqeyə malik Azərbaycan regionda ikitərəfli, üçtərəfli, hətta dördtərəfli əməkdaşlıq formatlarının da əsas təşəbbüskarı və aparıcı fiqurudur. Müxtəlif regional əməkdaşlıq formatları məhz Azərbaycanın təşəbbüsü ilə yaranıb və səmərəli fəaliyyət göstərir.

Digər tərəfdən, ölkəmiz beynəlxalq sülh və təhlükəsizliyin bərqərar olunmasına da dəyərli töhfələr verir. Yeri gəlmişkən, cari ilin 3-4 aprel tarixlərində Vaşinqton şəhərində NATO xarici işlər nazirlərinin növbəti iclasında bu məsələ də diqqət mərkəzində olub. Xatırladaq ki, iclas NATO-nun 70-ci ildönümünə həsr olunub. NATO-nun Baş katibi Yens Stoltenberq iclas çərçivəsində mətbuata verdiyi açıqlaması zamanı Azərbaycan Respublikasının Alyansın yaxın tərəfdaşı olduğunu bildirib, ölkəmizin beynəlxalq sülh və təhlükəsizliyin bərqərar olunmasında NATO ilə sıx əməkdaşlıq etdiyini vurğulayıb.

Xatırlatmaq yerinə düşər ki, Azərbaycan Respublikası ilə NATO arasında tərəfdaşlığın əsası Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 4 may 1994-cü il tarixində Sülh Naminə Tərəfdaşlıq (SNT) Çərçivə Sənədini imzalaması ilə qoyulub. Azərbaycan SNT proqramının prinsiplərinə əsaslanmaqla sülhü dəstəkləmə əməliyyatlarında iştirak, meydana gələn təhlükəsizlik təhdidlərinə qarşı mübarizə və əsas vurğusu təhlükəsizlik və müdafiə islahatlarına yönələn geniş spektrli məsələlər üzrə siyasi dialoq və praktiki əməkdaşlıq həyata keçirir. Azərbaycan Respublikası 2003-cü ildən başlayaraq NATO-nun Əfqanıstanda həyata keçirdiyi əməliyyata töhfə verir. Hazırda Azərbaycanın 6 nəfər qərargah zabiti və 2 nəfər hərbi həkim olmaqla 120 nəfərlik heyəti Alyansın Əfqanıstandakı “Qətiyyətli Dəstək” missiyasının tərkibində xidmət edir. Azərbaycan NATO-nun Əfqanıstanda sülhü bərqərar etmə səylərinə, eyni zamanda, hava və quru tranziti, müxtəlif treninqlər, humanitar mina təmizləmə və Əfqan Ordusu üzrə Etimad Fonduna maliyyə töhfələri ilə də dəstək həyata keçirir. Bütövlükdə isə, NATO Azərbaycanın Əfqanıstandakı sülhməramlı əməliyyatlarda iştirakını yüksək qiymətləndirir. Yeri gəlmişkən, bəhs olunan iclasda Baş katib Azərbaycanın NATO-nun rəhbərliyi ilə Əfqanıstanda həyata keçirilən “Qətiyyətli Dəstək” missiyasına əhəmiyyətli hərbi qüvvə və multimodal tranzit töhfəsi verdiyini diqqətə çatdırıb. Baş katib Y.Stoltenberqələlxüsus 2017-ci ildə fəaliyyətə başlamış Bakı-Tbilisi-Qars dəmir yolunun NATO üzv dövlətləri tərəfindən Əfqanıstana və geriyə daşımalar zamanı istifadə olunduğunu qeyd edərək bu dəmir yolunun Alyansın “Qətiyyətli Dəstək” missiyasının uğuruna mühüm töhfə verdiyini vurğulayıb.

Bu məqamda vurğulamaq yerinə düşər ki, müstəqillik tariximizin möhtəşəm layihələrindən olan Bakı-Tbilisi-Qars dəmir yolu xətti 2017-ci ilin oktyabr ayında Beynəlxalq Dəniz Ticarət Limanında keçirilən təntənəli mərasimlə istifadəyə verilib. Asiya ilə Avropanı birləşdirən və Avrasiya məkanı üçün yeni yüksəliş layihəsi olan Bakı-Tbilisi-Qars dəmir yolu xətti Prezident İlham Əliyevin siyasi iradəsi sayəsində reallığa çevrilib. Qonşu Türkiyə və Gürcüstanla sıx əməkdaşlığın nəticəsi olan Bakı-Tbilisi-Qars layihəsi ölkələrimiz arasındakı əlaqələrin strateji təzahürünü də nümayiş etdirir. Bu yolla artıq yüklərin daşınması uğurla həyata keçirilir. Bununla da çox mühüm transmilli neft-qaz kəmərlərinə malik Azərbaycan bu strateji layihənin reallaşması ilə özünün nəinki regionda, bütünlükdə Avrasiya qitəsindəki əhəmiyyətini artırıb. Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin işə düşməsi Azərbaycanın dövlət müstəqilliyinin gücləndirilməsində, iqtisadi qüdrətinin artırılmasında yeni mühüm strateji amilə çevrilib və regionda sabitliyə, xalqlarımızın daha da yaxınlaşmasına və iqtisadi inkişafa böyük töhfədir.

Yuxarıda da bildirdiyimiz kimi, Azərbaycan “Qətiyyətli Dəstək” missiyasına nəqliyyat və logistik dəstək də göstərir. Bakı-Tbilisi-Qars dəmir yolu Əfqanıstana multimodal daşımalar üçün geniş imkanlar yaradıb. Bakı-Tbilisi-Qars dəmir yolu Lapis-Lazuli nəqliyyat dəhlizinin əsas hissəsini təşkil etməklə NATO dövlətlərinin Əfqanıstana fasiləsiz və təhlükəsiz şəkildə daşımalar həyata keçirməsinə əhəmiyyətli töhfələr verir. Ələt beynəlxalq dəniz limanı bu sahədə imkanları əlavə olaraq genişləndirəcək. Uzunmüddətli perspektivdə Azərbaycan ərazisindən tranzit NATO-nun Əfqanıstandakı missiyasının təchizatı, habelə Əfqanıstanın davamlı inkişafı kontekstində mühüm əhəmiyyət kəsb edir.

Bütövlükdə, Azərbaycanla NATO arasında güclü tərəfdaşlıq əlaqələri regional təhlükəsizlik və sabitlik məsələlərində mühüm rol oynayır.

**Nurlan QƏLƏNDƏRLİ**

# Ağsu rayonunda aztəminatlı ailələr üçün meyvə bağları salınıb



IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) birgə təşəbbüsü ilə aprelin 5-də Ağsu rayonunda aztəminatlı ailələr üçün meyvə bağları salınıb.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, rayon icra hakimiyyətinin başçısı Ənvər Seyidəliyev gənclər qarşısında çıxış edərək IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə keçirilən bu aksiyanın sosial-iqtisadi əhəmiyyətindən danışıb.

Ağacəkmə aksiyası zamanı rayonun Aratlı-Curuğlu bələdiyyəsi ərazisində ayrılan 2 hektar ərazidə 1000 ədəd nar ağacı əkilib. Salınan meyvə bağları aztəminatlı ailələr arasında bölünərək, onların təmənnasız istifadəsinə verilib. Aztəminatlı ailələr salınan nar bağlarına qulluq edib onlardan gəlir götürmək və maddi rifahlarını yaxşılaşdırmaq imkanı qazanıblar.

Meyvə ağaclarının əkilməsi üzrə pilot layihə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) xoşməramlı səfiri Leyla Əliyevanın təşəbbüsü ilə 2017-ci ilin aprel ayında başlanıb. Layihə çərçivəsində ilk meyvə bağı İsmayıllı, daha sonra ilə Şəmkir, Ağstafa, Tovuz, Ağdaş, Qax, Lənkəran, Beyləqan, Sabirabad, Ağcabədi, Bərdə, Lerik, Quba, Qəbələ, İmişli, Göygöl, Qazax və Balakən rayonlarında salınaraq, aztəminatlı ailələrin, o cümlədən Qarabağ müharibəsi veteranı və şəhid ailələrinin istifadəsinə verilib.

Layihə sosial-iqtisadi əhəmiyyətə malikdir. Belə ki, bu cür bağların salınması əhalinin rifahının yaxşılaşdırılması ilə yanaşı, ölkəmizin kənd təsərrüfatı mallarının idxalından asılılığının azaldılmasına da töhfə verəcək.

Layihə çərçivəsində fındıq, nar, ərik, feyxoa, xurma, qoz, alma növlərindən olmaqla, ümumilikdə, 20808 meyvə ağacı əkilib və 63 aztəminatlı ailə meyvə bağı ilə təmin edilib.

Aztəminatlı ailələr üçün meyvə bağlarının salınması layihəsi çərçivəsində ağacəkmə aksiyaları ölkənin digər rayonlarında da təşkil ediləcək.

Qeyd edək ki, Ağsu rayonunda meyvə bağlarının salınması üzrə təşkil edilən aksiyaya 200 nəfərdən çox yerli gənc könüllü olaraq qoşulub. IDEA İctimai Birliyi aksiyada iştirak edən bütün könüllülərə və tədbirin keçirilməsinə dəstək verən qurumlara təşəkkürünü bildirib.

# Ermənistan ordusunda hərc-mərclik baş alıb gedir

*Mənəvi-psixoloji durumun acınacaqlı olduğu işğalçı orduda hazırda ikihakimiyyətlilik hökm sürür*



Bu gün işğalçı Ermənistanda bütün sahələrdə, o cümlədən orduda acınacaqlı vəziyyətin hökm sürdüyü kimsəyə sirr deyil. Mənəvi-psixoloji durumun acınacaqlı olduğu işğalçı orduda itaətsizlik artıq kütləvi hal alıb. Bu yaxınlarda Ermənistanın Meğri rayonunda yerləşən hərbi hissədə əsgərlərin zabitin əleyhinə qiyam qaldırması da deyilənləri təsdiqləyir.

Öz növbəsində erməni hərbi ekspertlər də hazırda işğalçı ordunun ümumi vəziyyətinin qənaətbəxş olmadığını etiraf edirlər. Məsələn, hərbi ekspert Hayk Naqapetyan jurnalistlərlə söhbətində bildirib ki, ölkədə baş verən siyasi və hüquqi proseslər hərbi qulluqçuların mənəvi-psixoloji hazırlığını ən aşağı həddə qədər salıb: **“Hər bir ordunun hərbi potensialı kadr hazırlığı, hərbi-texniki təhlükəsizlik, hərbi qulluqçuların mənəvi-psixoloji hazırlığı kimi kriteriyalarla ölçülür”.**

Onun sözlərinə görə, hazırda yüksəkrütbəli hərbçilərə qarşı cinayət təqibi ilə bağlı məsələlər də orduya qarşı ikrah hissini gücləndirir və əsgərlərin xidmət keçməsində mənfi rol oynayır.

Ekspert digər bir səbəbi hərbi qulluqçuların sosial təminatındakı çətinliklə əlaqələndirib. Onun sözlərinə görə, hökumət dövlət gəlirləri komitəsinin əməkdaşları üçün mükafat fondunun artırılması barədə qərar qəbul etdiyi halda, 1100 hərbçi ailəsinin mənzil şəraitinin yaxşılaşdırılması üçün heç bir addım atılmır: **“Hərbçilərin sosial müdafiəsi üçün 5 milyon dram pul ayrılması bu problemin həllinə imkan vermir. 300-dən çox hərbçi ailəsi Yerevanda yaşayır. Aydındır ki, bu məbləğ onları mənzillərlə təmin etmək üçün kifayət deyil”.**

Onu da qeyd edək ki, Ermənistanda və işğal olunmuş ərazilərdə hərbi hissələrdə əsgərlərin arasında nizamnamədənkənar münasibətlər onların intihar etməsi, hətta bir-birini güllələməsi hallarının sayını da artırır. Bütün ölkə üzrə hərbçilərə qarşı antipatiya da hökm sürür. Yerevan şəhərinin özündə hərbçilərə qarşı cinayətlərin sayı artmaqdadır. “Shamshyan.com” saytının məlumatına görə, Yerevanın mərkəzində hərbi hissə komandirinə qarşı odlu silahdan atəş açılıb. Hərbi hissə komandiri Coni Samsonyan ayağından yaralanıb, tapançadan atəş açan şəxs yaxalanıb. Cinayətin dəqiq motivi hələlik bilinməsə də, müşahidəçilərin qənaətinə görə, bu cinayətin əsas səbəbi son illərdə orduda baş verən hərc-mərclikdən qaynaqlanır.

Yeri gəlmişkən, “Joğovurd” qəzetinin yazdığına görə, Ermənistanın təxribatçı bəyanatlarının müəllifi olan müdafiə naziri Davit Tonoyan və baş qərargah rəisi Artak Davityan arasında ciddi narazılıq var. Ermənistan ordusuna başçılıq edən bu şəxslərin narazılıqları hərbi hissələrdə açıq-aşkar özünü büruzə verir. Belə ki, hissə komandirlərinin bir hissəsi özlərini Tonoyanın, digərləri Davityanın adamları hesab edirlər. Məlumatlara görə, kökləri 10 il əvvələ qədər gedib çıxan bu qarşıdurmanın nəticəsidir ki, orduda çaxnaşma, itaətsizlik, bir sözlə ikihakimiyyətlilik hökm sürür.

Bu faktlar sübut edir ki, maddi-texniki təminat sarıdan korluq çəkən, zabit və əsgərlərinin mənəvi-psixoloji durumunun acınacaqlı olduğu, hərbi hissələrdə cinayət və itaətsizliyin hökm sürdüyü işğalçı ordu nəinki müharibəyə, heç adi hərbi əməliyyata da hazır deyil.

**Qaşqay ZİYƏDDİNOĞLU**

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə “Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi” istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

# Azərbaycanda sahibkarlığın inkişafı istiqamətində mühüm layihələr həyata keçirilir

*Ölkəmizdə kiçik və orta biznes nümayəndələrinə, o cümlədən kənd təsərrüfatı ilə məşğul olan sahibkarlara bütün sahələrdə yardımlar edilir, qayğı göstərilir*




Son illərdə Azərbaycanda, xüsusilə də ölkənin regionlarında iqtisadi fəallığın təmin olunmasında özəl bölmənin rolu getdikcə artır. Bu da səbəbsiz deyil. Belə ki, dövlət tərəfindən respublikamızda sahibkarlığın inkişafına davamlı olaraq dəstək göstərilir. Vurğulamaq lazımdır ki, son 15 ildə ölkə üzrə investisiya layihələrinin ümumi dəyəri 5,1 milyard manat olan 35 mindən çox sahibkara 2,3 milyard manat güzəştli kredit verilib. Güzəştli kreditlərin 72 faizi aqrar sektorun, 28 faizi sənaye və digər sahələrin inkişafına yönəldilib. Bu kreditlərin 75 faizi regionların, 25 faizi Bakı qəsəbələrinin payına düşür.

Onu da qeyd edək ki, son 15 ildə Azərbaycanda fəaliyyət göstərən sahibkarlıq subyektlərinin sayı 4,3 dəfə, o cümlədən sahibkarlıq fəaliyyəti göstərən hüquqi şəxslərin sayı 2 dəfə artıb. Bəhs olunan dövrdə respublikamızda hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin sayı isə 5,1 dəfə artıb. Bu il yanvarın 29-da keçirilən “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının yekunlarına həsr olunan konfransdakı çıxışında bu məqama toxunan Prezident İlham Əliyev bildirib ki, son 15 il ərzində biznes mühitinin yaxşılaşdırılması ilə bağlı böyük addımlar atılıb. Dövlət başçısı qeyd edib ki, sahibkarlığın inkişafına böyük dəstək verilib: **“Təkcə güzəştli şərtlərlə sahibkarlara verilən kreditlərin məbləği 2 milyard manatı ötüb. Sevindirici hal ondan ibarətdir ki, dövlət büdcəsindən bu məbləğin cəmi bir milyard manatı ayrılmışdır. Qalan bir milyard manatdan çox vəsait verilmiş və qaytarılmış kreditlər hesabına yenidən kredit şəklində verilib. Beləliklə, biz kifayət qədər böyük maliyyə resursu yaratmışıq. Bu, bizə imkan verir ki, dövlət büdcəsinin yükünü azaldaq və gələcəkdə güzəştli şərtlərlə sahibkarlara maliyyə dəstəyi göstərək”.**

Vurğulanmalıdır ki, sahibkarlığın inkişafına göstərilən dövlət dəstəyi, respublikamızda özəl bölmənin inkişafının dəstəklənməsi, o cümlədən də sahibkarlara güzəştli şərtlərlə kreditlərin verilməsi davamlı səciyyə daşıyır. 2018-ci ildə ölkə üzrə sahibkarlıq subyektlərinin 999 investisiya layihəsinin maliyyələşdirilməsinə 160,2 milyon manat güzəştli kredit verilib. 2019-cu ildə də sahibkarlara geri qaytarılan vəsaitlər hesabına azı 160 milyon manat güzəştli kreditin verilməsi nəzərdə tutulur.

Onu da qeyd etmək yerinə düşər ki, yuxarıda bəhs olunan konfransda sahibkarlığın inkişafının davamlı dəstəklənməsi məsələsinə də toxunulub. Belə ki, dövlət başçısı sahibkarlıqla bağlı siyasətin davam etdiriləcəyini bildirib: **“Sahibkarlara dövlət tərəfindən böyük dəstək verilir - həm mənəvi dəstək, siyasi dəstək, maddi dəstək. Fermerlərə kreditlər, subsidiyalar verilir. Bu sahədə də təkmilləşmə gedəcək, texnika, gübrələr, yanacaq güzəştli şərtlərlə verilir. Bu sahədə də Azərbaycan nadir ölkələrdəndir ki, öz sahibkarına, öz fermerinə bu qədər diqqət göstərir. Əlbəttə ki, biz sahibkarlardan daha böyük nəticələr gözləyirik. Gözləyirik ki, onlar bundan sonra da ölkə iqtisadiyyatına öz töhfələrini verəcəklər”.**

Sahibkarlara dəstəkdən danışarkən vurğulamaq yerinə düşər ki, aprelin 3-də “Aqrolizinq” ASC tərəfindən Xızı rayonunda mineral gübrələrin güzəştli şərtlərlə səyyar satışı həyata keçirilib. İmanqulukənd kəndində təşkil olunan səyyar satışda 40-a yaxın sahibkar fermerə 20 ton mineral gübrə satılıb. Səyyar satışdan yararlanan təsərrüfatçılar mineral gübrələri 70 faiz güzəştlə əldə ediblər. “Aqrolizinq” ASC tərəfindən rayon mərkəzindən uzaq məsafədə yerləşən kəndlərdə mövsüm başa çatmamış azot gübrəsinin güzəştli şərtlərlə səyyar satışına fevral ayından başlanılıb. Səyyar satışın həyata keçirilməsində əsas məqsəd gübrələrin alışı zamanı vətəndaşların sərf etdikləri zaman, məsafə itkisinin və əlavə məsrəflərin qarşısının alınması, həmçinin vətəndaşlara cəmiyyətin əlçatanlığını, yaxınlığını təmin edərək, vətəndaş məmnuniyyətinə nail olmaqdır.

“Aqrolizinq” ASC tərəfindən Qusar rayonunda da mineral gübrələrin güzəştli şərtlərlə səyyar satışı keçirilib. Təşkil olunan səyyar satışda 50-yə yaxın fermerə 25 ton mineral gübrə satılıb. Səyyar satışdan yararlanan təsərrüfatçılar mineral gübrələri 70 faiz güzəştlə əldə ediblər. Qeyd edək ki, “Aqrolizinq” ASC tərəfindən rayon mərkəzindən uzaq məsafədə yerləşən kəndlərdə mövsüm başa çatmamış azot gübrəsinin güzəştli şərtlərlə səyyar satışına fevral ayından etibarən başlanılıb.

Eyni zamanda, Tovuz və Ağstafa rayonlarında da sahibkarlara azot gübrəsinin güzəştli şərtlərlə səyyar satışının keçirilməsi nəzərdə tutulub. Səyyar satışın Tovuz rayonunun Qaraxanlı kəndində, Ağstafa rayonunun Korxəlfəli kəndində keçirilməsi nəzərdə tutulub. Bu kəndlərə yaxın bütün ətraf yaşayış məntəqələrinin sakinləri səyyar satışdan yararlana bilərlər və səyyar satış zamanı vətəndaşlar tələb olunan sənədləri təqdim etməklə 70 faiz güzəştdən yararlanaraq mineral gübrə ala bilərlər.

Bundan başqa, Kənd Təsərrüfatı Nazirliyi yerli sahibkarlara yardım məqsədilə Gədəbəy rayonunun Saratovka kəndində də analoji səyyar satışın keçirilməsini nəzərdə tutub. Bu kəndə yaxın bütün ətraf yaşayış məntəqələrinin sakinləri səyyar satışdan yararlana bilərlər. Bu səyyar satış zamanı da vətəndaşlar tələb olunan sənədləri təqdim etməklə 70 faiz güzəştdən yararlanaraq mineral gübrə əldə edə bilərlər.

Eləcə də Samux rayonunda yerli sahibkarlar, fermerlər azot gübrəsinin güzəştli şərtlərlə səyyar satışından yararlana biləcəklər. Belə ki, növbəti səyyar satışlar Samux rayonunda baş tutacaq. Satışın keçiriləcəyi ərazilərə yaxın bütün ətraf yaşayış məntəqələrinin sakinləri də səyyar satışdan yararlana bilərlər.

Yeri gəlmişkən, ölkəmizdə sahibkarlığa yardım, kiçik və orta sahibkarlığın təşviqi, eləcə də ailə təsərrüfatlarının yaradılması və kənd təsərrüfatının ayrı-ayrı sahələrinin inkişaf etdirilməsi ilə bağlı mühüm layihələr də həyata keçirilir. Bu layihələrdən yararlanan insanlar öz bizneslərini qura və sahibkarlıq subyektinə çevrilə bilirlər. Bu məqsədlə ölkənin hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da mütəmadi işlər aparılır. Belə ki, ailə əməyinə əsaslanan fərdi təsərrüfatların, sahibkarlıq subyektlərinin yaradılmasına kömək göstərilməsi məqsədilə muxtar respublikanın Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Şərur, Babək, Ordubad, Culfa, Şahbuz, Kəngərli və Sədərək rayonları üzrə ümumilikdə 21 aztəminatlı ailə müəyyənləşdirilərək özünüməşğulluq üzrə Dövlət Proqramına cəlb edilib.

Qeyd edildiyi kimi, ölkəmizdə kənd təsərrüfatının ayrı-ayrı sahələrinin inkişaf etdirilməsi istiqamətində mütəmadi addımlar atılır. Yerli sahibkarların maarifləndirilməsi, o cümlədən dövlət tərəfindən verilən kreditlərin səmərəli istifadəsi üçün mütəmadi görüşlər keçirilir, məsləhətləşmələr aparılır. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Kredit və İnkişaf Dövlət Agentliyi ilə birgə qoyunçuluq sektorunun inkişafı üzrə maraqlı tərəflərin məsləhətləşmə toplantısının təşkili də məhz bu məqsədə xidmət göstərir. Tədbirin əsas məqsədi qoyunçuluğun dəyər zənciri iştirakçılarını fəal şəkildə cəlb etməklə, qoyunçuluq və emal olunmuş qoyun məhsulları (ət, dəri və yun daxil olmaqla) alt-sektorunun cari vəziyyətini, mövcud və yarana biləcək çətinlikləri öyrənmək, bu alt-sektorun əhalinin iş yerləri, gəlir, ətraf mühit, sosial mənfəətlər və digər mühüm iqtisadi fəaliyyətlərə verə biləcəyi faydaların araşdırılmasıdır. Toplantıda Kənd Təsərrüfatı Nazirliyi, Qida Təhlükəsizliyi Agentliyi, digər dövlət müəssisələri, assosiasiyalar, beynəlxalq təşkilatlar və özəl sektor nümayəndələri, fermerlər, regionlarda yaşayan sahibkarlar, həmçinin FAO-nun beynəlxalq mütəxəssisləri iştirak ediblər.

Qeyd edək ki, iclas Azərbaycan hökuməti tərəfindən maliyyələşdirilən və FAO-Azərbaycan Tərəfdaşlıq Proqramı çərçivəsində 2018-ci ilin dekabr ayından icra olunan “Qoyunçuluğun davamlı inkişafı və ərzaq məhsullarının istehsalı üzrə dəyər zəncirinin yaradılması” layihəsi çərçivəsində təşkil olunub. Layihə çoxaltma və yemləmə strategiyalarının hazırlanması, heyvan sağlamlığı və transsərhəd xəstəliklərin idarəsi sahəsində mövcud olan çətinlikləri həll etmək, məhsulun bazar tələbatına əsasən hazırlanmasını təmin etmək üçün qoyunçuluq üzrə dəyər zəncirinin fəaliyyətini dayanıqlı şəkildə inkişaf etdirmək məqsədini daşıyır.

Eləcə də “Yalama Aqropark”ın tərəfdaşı, Almaniyanın “Josera” şirkəti ilə birgə təşkil edilən forum da kiçik və orta biznes sahibkarlarının, xüsusilə kənd təsərrüfatı ilə məşğul olan yerli fermerlərin inkişafına xidmət göstərib. Qeyd edək ki, dünyanın 21 ölkəsindən südçülük sahəsi üzrə 65 ekspertin qatıldığı forumun iştirakçıları “Yalama Aqropark”a gələrək burada yaradılan şəraitlə tanış olublar. Forum çərçivəsində müəssisədə təşkil edilən panellərdə südçülük sahəsində təcrübə və bilik mübadiləsi aparılıb, müxtəlif mövzular müzakirə edilib.

Tədbirin praktiki hissəsində “Yalama Aqropark”da yem rasionlarında əlavələr və vitaminlərin istifadəsi, yemləmə sahəsində innovativ yanaşmalar, həmçinin silos hazırlanması və istifadəsi haqqında danışılıb. “Yalama Aqropark” MMC-nin icraçı direktoru Zaur Əliyev bildirib ki, südçülük sahəsində təcrübə və bilik mübadiləsi platforması kimi qəbul olunan bu tədbir indiyədək dünyanın müxtəlif ölkələrində keçirilib.

Forumun məqsədi ölkəmizdə südçülük sahəsinin inkişafı üçün beynəlxalq təcrübəni öyrənmək, bilik və təcrübə mübadiləsini təmin etməkdir. Tədbir əcnəbi mütəxəssislərin ölkəmizdə mövcud heyvandarlıq kompleksləri haqqında məlumatlandırılmasına şərait yaradır.

Forumda Almaniya, Fransa, İspaniya, Belçika, Türkiyə, Ekvador, Çili, Kanada həmçinin Rusiya, Ukrayna, Belarus kimi ölkələrdən mütəxəssislər iştirak edirlər. Qeyd edək ki, “Yalama Aqropark” Xaçmaz rayonunun Yalama qəsəbəsində ölkə üzrə yaradılmış ilk aqroparkdır.

**Pərviz SADAYOĞLU**

# Heydər Əliyev Fondu Pakistanın Müzəffərabad şəhərindəki Rara qızlar məktəbinə hədiyyələr göndərib







Heydər Əliyev Fondu Pakistanın Müzəffərabad şəhərindəki Rara qızlar məktəbinə hədiyyələr göndərib. Azərbaycan Respublikasının Pakistandakı səfirliyinin nümayəndələri məktəbdə olaraq müxtəlif dərs ləvazimatları, o cümlədən məktəb üçün kompüter, printer, idman ləvazimatları və Fondun müxtəlif nəşrlərini təqdim ediblər.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Pakistandakı səfiri Əli Əlizadə mərasimdə çıxış edərək 2005-ci ildə Pakistanda baş vermiş zəlzələdən sonra dağılan məktəb binasının Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə Fond tərəfindən inşa edildiyini və 2007-ci ildə istifadəyə verildiyini bildirib. Heydər Əliyev Fondunun Pakistanla əlaqələri daim diqqətdə saxladığı, Fondun prezidenti Mehriban Əliyevanın Pakistanla əməkdaşlığa və əlaqələrə xüsusi önəm verdiyi vurğulanıb. Bu baxımdan ötən müddət ərzində Müzəffərabad şəhərindəki məktəb daim diqqətdə saxlanılıb, mütəmadi olaraq Fond və səfirlik nümayəndələri məktəbdə olublar.

Heydər Əliyev Fondunun fəaliyyəti, onun təhsil, səhiyyə, mədəniyyət, idman, elm və texnologiya, ekologiya, sosial və digər sahələrdə müxtəlif ölkələrdə, o cümlədən Pakistanda həyata keçirdiyi sosial və humanitar layihələr barədə məlumat verən səfir Müzəffərabad şəhərində 400 şagird yerlik Rara qızlar məktəbinin inşa edilməsinin bunun bir nümunəsi, həmçinin Azərbaycan-Pakistan dostluq və qardaşlıq əlaqələrinin təzahürü olduğunu bildirib.

Rara qızlar məktəbinin direktoru xanım Şirin Kadri və Kəşmirin təhsil üzrə direktoru məktəbin çətin və ehtiyac duyulan bir zamanda Fond tərəfindən tikilib istifadəyə verildiyini və bu addımın yüksək qiymətləndirildiyini bildiriblər. Onlar təhsil üçün yaradılmış əlverişli şəraitə görə Azərbaycan dövlətinə, eyni zamanda, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya təşəkkür ediblər və şagirdlərin müxtəlif biliklərə yiyələnmələrində, tədris, təlim və tərbiyələrində məktəbin önəmli rolunun olduğunu diqqətə çatdırıblar.

Tədbir çərçivəsində Rara qızlar məktəbinin şagirdləri müxtəlif musiqili-mədəni səhnəciklər təqdim ediblər.

# “Nəsimi ili” ilə bağlı fərdi jurnalist yazıları müsabiqəsi elan olunub

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF

Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi bu ilin “Nəsimi ili” elan edilməsi ilə əlaqədar birgə fərdi jurnalist yazıları müsabiqəsi elan edib.

Fonddan AZƏRTAC-a bildirilib ki, müsabiqənin məqsədi Nəsimi irsinin müasir humanitar düşüncənin tələbləri kontekstində aktuallığını, milli mədəni-mənəvi dəyərlərin təbliği baxımından xüsusi əhəmiyyətini nəzərə alaraq bu mövzuda jurnalist araşdırmalarını və yazılarını stimullaşdırmaqdır.

Müsabiqə “Nəsimi ili: klassik ədəbi irsə müasir baxış, milli və bəşəri ideyaların təbliği” mövzusuna həsr olunub.

Müsabiqə elan olunan günədək ən azı bir il müddətində kütləvi informasiya vasitələrində (qəzet, jurnal, informasiya agentliyi və rəsmi qeydiyyatdan keçmiş internet media resurslarında) fasiləsiz çalışan şəxslər müsabiqədə iştirak edə bilərlər.

Müsabiqəyə təqdim olunan yazının sərlövhəsi təklif olunmuş mövzu ilə eyni olmalı və jurnalist yalnız bir yazı təqdim edə bilər. Qəzet və jurnallarda çalışan jurnalistlərin yazıları yalnız çalışdıqları mətbuat orqanlarında dərc olunmalıdır. İnformasiya agentliklərində, sayt və portallarda çalışan jurnalistlər yazılarını həmin saytlarda yerləşdirməli və linki məqalənin yazıldığı diskdə təqdim etməlidirlər. Yazı son bir ildə, həftədə bir dəfədən az olmayaraq nəşr edilən, Azərbaycan Mətbuat Şurasının tərtib etdiyi “qara siyahı”ya düşməyən mətbuat orqanlarında dərc edilməli, eyni zamanda, saytlarda yerləşdirilməlidir.

Yazıların qəbulu aprelin 8-dən iyunun 28-dəkdir.

Müsabiqədə I yer üçün 1 nəfər (1000 manat), II yer üçün 2 nəfər (800 manat), III yer üçün 3 nəfər (500 manat) yazı qaliblərinin mükafatlandırılması nəzərdə tutulub. Bundan əlavə, 10 yazı müəllifinə (hər biri 200 manat) həvəsləndirici mükafatlar veriləcək.

Qaliblər, həmçinin Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun xüsusi diplomu ilə təltif olunacaqlar.

# Özbəkistanın “Sevimli” televiziya kanalında Heydər Əliyev Mərkəzi haqqında veriliş yayımlanıb




Özbəkistanın “Sevimli” televiziya kanalının “Zamon” proqramında Heydər Əliyev Mərkəzi haqqında veriliş yayımlanıb.

AZƏRTAC xəbər verir ki, bu yaxınlarda Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin təşəbbüsü ilə bir qrup özbək jurnalistin Azərbaycana mediaturu olub və videomaterial da bu səfər çərçivəsində hazırlanıb.

Proqramın müxbiri Dilnoza Saidova Heydər Əliyev Mərkəzi haqqında ətraflı məlumat verir. Bildirilir ki, Bakının simvollarından biri olan bu gözəl binanın layihəsini 2007-ci ildə məşhur memar, mərhum Zaha Hadid hazırlayıb.

Dünyanın nadir memarlıq abidələrindən biri sayılan bu binanın 2012-ci ildə təntənəli açılış mərasimi olub. Binada Heydər Əliyev muzeyi, sərgi salonları, beynəlxalq dialoq mərkəzi, iri konqres salonu var.

“Azərbaycan inciləri” sərgi salonunda ölkənin tarixini və mədəniyyətini əks etdirən müxtəlif eksponatlar nümayiş etdirilir. Burada Azərbaycan xalq çalğı alətləri ekspozisiyası diqqəti cəlb edir. “Mini Azərbaycan” sərgi salonunda 45 tarixi və memarlıq binasının maketləri var.

Birinci mərtəbədə böyük siyasi xadim Heydər Əliyevin vaxtilə istifadə etdiyi xidməti avtomobillər nümayiş etdirilir.

Mərkəzdəki retro avtomobillər də buraya gələnlərin diqqətini cəlb edir. Burada Almaniya, ABŞ, İtaliya, Fransa, Böyük Britaniya və digər ölkələrdə istehsal olunmuş klassik avtomobilləri görmək mümkündür.

**İTMİŞDİR**

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən 31 yanvar 2002-ci ildə Yeni Apostol Kilsəsi Cəmiyyətinə verilmiş 28 nömrəli Dövlət Qeydiyyatı haqqında şəhadətnamə və 1836933 nömrəli identifikasiya kodu cəmiyyətin ümumi yığıncağının qərarı ilə 25 fevral 2018-ci ildə ləğv edilmişdir.

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
Baş redaktor:
Hikmət BABAOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 6074
“Kapital Bank”ın Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

İnformasiya mənbələrimiz:
“AZƏRTAC”,
“Azadinform”, “SİA”
Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
**Buraxılışa məsul**:
Zahid İLHAMOĞLU